QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 117 (5348) 6 **iyul** 2017-ci il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiymәti 40 qәpik**

# Qaçqın və məcburi köçkünlərin böyük hamisi

*İlham Əliyev: "Bizim əsas məqsədimiz məcburi köçkün soydaşlarımızı doğma yurd-yuvalarına qaytarmaq və orada onların əvvəlkindən də yaxşı şəraitini təmin etməkdir"*

Səh 2



**Bahar Muradova: "Ermənistan ordusu dinc azərbaycanlı əhalini mütəmadi olaraq atəşə tutur"**



3

**Dövlət Baytarlıq Xidmətində səyyar müşavirə keçirilib**



4

**Mübariz Qurbanlı: "Dini konfessiyaların nümayəndələri erməni vandallığını pisləyir"**



3

**Sarkisyanın öldürdüyü azərbaycanlı uşaqlar**



6

**Türkiyə XİN: Ermənistan hərbçilərinin mülki azərbaycanlıları qətlə yetirməsini qətiyyətlə pisləyirik**



12

**Erməni bölmələrinin atəşi nəticəsində həlak olan Alxanlı kənd sakinləri dəfn edilib**



9

5

**İki Sarqsyan: baba və qatil**



3

**"Ermənistan silahlı qüvvələrinin növbəti təxribatı bu ölkənin terrorçu mahiyyətini bir daha sübut edir"**



16

**Pepe "Beşiktaş"da nə qədər qazanacaq?**



# Qaçqın və məcburi köçkünlərin böyük hamisi

## *İlham Əliyev: “Bizim əsas məqsədimiz məcburi köçkün soydaşlarımızı doğma yurd-yuvalarına qaytarmaq və orada onların əvvəlkindən də yaxşı şəraitini təmin etməkdir”*





Azərbaycan dövləti hər zaman vətəndaşının yanında olduğunu, ən çətin günlərdə sonadək ona dayaq durduğunu əməldə daim sübut edib. Azərbaycanın qaçqın və məcburi köçkünlərə münasibətdə yürütdüyü siyasət, bu qəbildən olan insanların sosial problemlərinin həlli istiqamətində atdığı addımlar, onların mənzil-məişət şəraitlərinin yaxşılaşdırılmasına xidmət edən çoxsaylı layihələrin həyata keçirilməsi dünyada ən yaxşı örnəklər sırasında yer alır. Qaçqın və məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması üçün görülən işlər onların hər zaman dövlətin, o cümlədən, Prezident İlham Əliyevin diqqət və qayğısı ilə əhatə olunduğunu aydın şəkildə nümayiş etdirir.

Məcburi köçkünlərə göstərilən diqqət və qayğının dövlət siyasəti səviyyəsinə yüksəlməsi istiqamətində atılan mühüm addımlardan biri Prezidentin 2004-cü il 1 iyul tarixli Sərəncamı ilə “Qaçqınların və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması və məşğulluğunun artırılması üzrə Dövlət Proqramı”, 2007-ci il 31 oktyabr tarixli və 2011-ci il 21 fevral tarixli sərəncamları ilə həmin Dövlət Proqramına əlavələrin təsdiq edilməsi oldu.

### Faktlar, rəqəmlər və reallıqlar

Son 10 ildə qaçqınların və məcburi köçkünlərin sosial problemlərinin həlli dövlət siyasətinin prioritet istiqamətlərindən biri olub. Həmin müddətdə qaçqınların və məcburi köçkünlərin sosial şəraitinin yaxşılaşdırılması ilə bağlı Azərbaycan Respublikasının Prezidenti tərəfindən 51 Fərman və Sərəncam imzalanıb, “Qaçqınların və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması və məşğulluğunun artırılması üzrə Dövlət Proqramı”, həmin Proqrama 2 əlavə təsdiq edilib. 16 min ailəyə sosial yardım verilib. Büdcədən maliyyələşdirilən müəssisələrdə, təşkilatlarda çalışmış, özlərindən asılı olmayan səbəblərə görə iş yerlərindən məhrum olmuş və işlə təmin edilməyən 11 min nəfərədək məcburi köçkünə orta aylıq əməkhaqqı ödənilir.

Qeyd olunanlar, bir daha belə reallığı da ortaya qoyur ki, Azərbaycan dövləti hər zaman vətəndaşlarının qayğısına qalır, onların problemlərinin həlli dövlət siyasətinin mühüm istiqamətini təşkil edir. Bu məqama toxunan Prezident İlham Əliyev qeyd edir: “Azərbaycan dövləti məcburi köçkünlərin problemləri ilə mütəmadi qaydada məşğuldur və bu məsələlərin həlli üçün böyük vəsait ayrılır... Hər il ən azı 20 min köçkün yeni evlərə köçürülür, onların şəraiti yaxşılaşır. Yəni bir sözlə, biz hər il demək olar ki, bir kiçik şəhər yaradırıq və bunu davam etdirəcəyik. Əminəm ki, növbəti illərdə bu proses daha da sürətlə gedəcək”.

### Mehriban Əliyeva Qaradağ rayonunda məcburi köçkünlər üçün yaşayış kompleksinin təməlini qoyub

Azərbaycanın Birinci vitse-prezidenti məcburi köçkünlər üçün yaşayış kompleksinin təməlqoyma mərasimində çıxışı zamanı bildirib ki, soydaşlarımızın üzləşdiyi problemlərin Azərbaycan dövlətinin diqqət mərkəzində olduğunu, müstəqilliyimizin ilk illərindən bu istiqamətdə həyata keçirilən tədbirlərin dövlət siyasətinin əsas istiqamətlərindən birini təşkil etdiyini, doğma torpaqlarından didərgin düşmüş soydaşlarımızın yaşayış şəraitinin yaxşılaşdırılması üçün 2004-cü ildə Dövlət Proqramının qəbul edildiyini, 2007-ci və 2011-ci illərdə bu Proqrama əlavələrin təsdiqləndiyini, ümumiyyətlə, bu istiqamətdə həyata keçirilən tədbirlərin icrasına 6 milyard manatdan çox vəsait ayrıldığını diqqətə çatdırıb. Xatırladıb ki, ümumilikdə, bu, 50 min ailənin, 250 mindən çox insanın yaşayış şəraitinin yaxşılaşdırılması, yeni mənzillə təmin olunması deməkdir. “Son 13 ildə 400 mindən çox qaçqın və məcburi köçkün yeni iş yeri ilə təmin olunub. Hər bir qəsəbədə məktəblər və uşaq bağçaları salınır. Ali və orta ixtisas təhsil ocaqlarında ödənişli formada təhsil alan qaçqınlar və məcburi köçkünlər təhsil haqqını ödəməkdən azad olunublar”,- deyən Azərbaycanın Birinci vitse-prezidenti vurğulayıb ki, həm çadır şəhərciklərinin ləğvində, həm humanitar faciənin qarşısının alınmasında Azərbaycan dövlətinin təcrübəsi, nadir bir təcrübədir və beynəlxalq təşkilatlar tərəfindən çox yüksək qiymətləndirilir.

“Bu gün təməli qoyulan müasir yaşayış kompleksi ölkəmizin özəl sektorunun həmin bu nəcib işə töhfəsidir. Hesab edirəm çox gözəl bir haldır ki, dövlətlə yanaşı, iş adamları, sahibkarlar da bu məsələyə dəstəyini verməyə hazırdırlar”,- deyən Mehriban xanım Əliyeva bu təşəbbüsü yüksək dəyərləndiridi.

Məcburi köçkünlər də yaxşı bilirlər ki, dövlət başçısının uğurla reallaşdırdığı siyasət nəticəsində Ermənistan diplomatik sferada tam məğlubiyyətə uğrayıb, işğal altında olan ərazilərdən düşməni hər an geriyə atmağa qadir olan qüdrətli Azərbaycan Ordusu yaradılıb. Azərbaycan Prezidentinin ətrafında daha sıx birləşən qaçqın və məcburi köçkünlərin özləri də zəbt olunmuş doğma torpaqlarının azad edilməsi üçün Ali Baş Komandanın döyüş əmrini yerinə yetirməyə hazırdırlar.

**RƏFİQƏ KAMALQIZI**

## Prezident İlham Əliyev Tərtərdə yol tikintisinə 7 milyon manat ayırıb

Prezident İlham Əliyev iyulun 5-də “Tərtər rayonunun Tərtər-Seydimli-Qaradağlı-Sarov avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında” Sərəncam imzalayıb.

AZƏRTAC xəbər verir ki, iyirmi dörd min nəfər əhalinin yaşadığı 20 yaşayış məntəqəsini birləşdirən Tərtər-Seydimli-Qaradağlı-Sarov avtomobil yolunun tikintisi məqsədi ilə Azərbaycan Respublikasının 2017-ci il dövlət büdcəsinin dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə avtomobil yollarının tikintisi və yenidən qurulması üçün nəzərdə tutulmuş vəsaitin 7 milyon manatı “Azəravtoyol” Açıq Səhmdar Cəmiyyətinə ayrılıb.

# Mübariz Qurbanlı: "Dini konfessiyaların nümayəndələri erməni vandallığını pisləyir"



Ölkəmizdə fəaliyyət göstərən dini konfessiyalar və dini icmalar Ermənistan silahlı qüvvələrinin Füzuli rayonunun Alxanlı kəndini atəşə tutması nəticəsində iki dinc sakinin - yaşlı qadın Sahibə Allahverdiyeva və onun 2 yaşlı qız nəvəsi Zəhra Quliyevanın həlak olmasına, bir mülki şəxsin - Səlminaz Quliyevanın ağır yaralanmasına sərt münasibət bildirib. SİA-nın verdiyi məlumata görə, bu barədə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı məsələyə münasibət bildirərkən deyib.

M.Qurbanlı bildirib ki, bu məsələ ilə əlaqədar dini icmalardan Dövlət Komitəsinə müraciətlər daxil olmaqda davam edir. Müraciətlərdə vurğulanır ki, dinc əhaliyə qarşı silah işlədilməsi erməni vandalizminin 25 ildən artıqdır həyata keçirdiyi hərbi təcavüz, etnik təmizləmə və terror aktlarının davamı, Ermənistan dövlətinin başında duranların qeyri-insani xüsusiyyətinin göstəricisidir.

Atəşkəs elan edilməsinə rəğmən mülki əhalinin, demək olar ki, hər gün atəşə tutulması, qətlə yetirilməsi, ölüm təhlükəsi altında yaşamağa məcbur qoyulması beynəlxalq müstəvidə erməni aqressorlarına qarşı münasibəti kökündən dəyişməyin, "pisləmək", "baş verənlərdən narahatlıq keçirmək" kimi vaxt uzatmağa hesablanmış açıqlamalardan qətiyyətli addımlar atmaq mərhələsinə keçməyin vaxtının çoxdan çatdığını bir daha sübuta yetirir.

Azərbaycanda fəaliyyət göstərən bütün dini konfessiyaların nümayəndələri mülki şəxsləri hədəf seçən bu vandallığı pisləyir və beynəlxalq təşkilatları, o cümlədən BMT-ni, ATƏT-in Minsk Qrupunu, dünya liderlərini bu cinayəti törədənlərin tezliklə cəzalandırılması istiqamətində səylərini birləşdirməyə çağırır.

# Azərbaycan XİN: "Ermənistan silahlı qüvvələrinin növbəti təxribatı bu ölkənin terrorçu mahiyyətini bir daha sübut edir"

***İyul ayının 4-də Ermənistan silahlı qüvvələrinin Azərbaycanın Füzuli rayonunun Alxanlı kəndinin mülki əhalisinin və mülki obyektlərinin hədəflənmiş şəkildə və qəsdən 80 və 102 millimetrlik minaatanlardan və dəzgahlı qumbaraatanlardan atəşə tutması nəticəsində 1967-ci il təvəllüdlü Quliyeva Sahibə və onun nəvəsi 2 yaşlı Quliyeva Zəhra həlak olublar. Digər mülki şəxs 1965-ci il təvəllüdlü Quliyeva Sərvinaz yaralanıb və mülki obyektlərə zərər yetirilib. Həlak olanların ailələrinə və yaxınlarına dərin hüznlə başsağlığı verir və yaralanan mülki şəxsin tezliklə şəfa tapmasını diləyirik.***



Ermənistan silahlı qüvvələrinin bu təxribatı nəticəsində yaşlı qadın və onun 2 yaşlı nəvəsinin öldürülməsi, digər mülki şəxsin yaralanması və mülki obyektlərə ziyan vurulması vandalizm aktı olaraq Ermənistan dövlətinin terrorçu mahiyyətini bir daha sübut edir.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyev bildirib. O deyib: "Cəbhə xətti boyunca Ermənistan silahlı qüvvələri tərəfindən sıx məskunlaşmış ərazilərdə yaşayan, aralarında qadınlar, uşaqlar və ahılların olduğu mülki əhaliyə qarşı qəsdən və hədəflənən hücumların edilməsi sistematik xarakter daşıyır. Ermənistanın Azərbaycan mülki əhalisinə və mülki obyektlərə birbaşa və qəsdən hücumları, beynəlxalq humanitar hüququn və insan haqlarının, xüsusilə 1949-cu il Cenevrə konvensiyaları və ona 1 saylı Əlavə, həmçinin uşaqların hüquqlarına və insan hüquqlarının müdafiəsi və fundamental azadlıqlara dair Konvensiyanın ciddi şəkildə pozulmasıdır.

ATƏT-in Minsk qrupunun həmsədrlərinin regiona səfərindən sonra həmsədrlər və beynəlxalq təşkilatlar substantiv və ciddi danışıqlar yolu ilə status-kvonun dəyişdirilməsinə çağırışlar etdiyi halda Ermənistan tərəfi mülki şəxslərin və uşaqların qəsdən öldürülməsinə yönəlmiş alçaq və şərəfsiz təxribatlara əl atır. Azərbaycan Respublikası dəfələrlə bəyan edib ki, Ermənistan silahlı qüvvələrinin işğal edilmiş Azərbaycan ərazilərində qeyri-qanuni mövcudluğu münaqişə zonasında gərginliyin və insidentlərin yaranmasının əsas səbəbidir və münaqişənin siyasi həllinə başlıca maneədir.

Ermənistanın siyasi-hərbi rəhbərliyinin ATƏT-in Minsk qrupunun həmsədrlərinin və beynəlxalq təşkilatların münaqişənin həlli üçün substantiv danışıqlara çağırışlarına mülki şəxslərin qəddar şəkildə öldürülməsi ilə cavabı bir daha onu sübut edir ki, həmsədrlər beynəlxalq hüququn norma və prinsiplərinə, beynəlxalq təşkilatların qərar və qətnamələrinə uyğun olaraq Ermənistanın öz qoşunlarını tezliklə Azərbaycanın işğal olunmuş ərazilərindən çıxarmasını, işğala əsaslanan status-kvonun dəyişdirilməsini tələb etməlidirlər.

Yaranmış vəziyyətə görə bütün məsuliyyət tam şəkildə Ermənistanın siyasi-hərbi rəhbərliyinin üzərinə düşür".

# Bahar Muradova: "Ermənistan ordusu dinc azərbaycanlı əhalini mütəmadi olaraq atəşə tutur"



İyulun 5-də Minsk şəhərində ATƏT Parlament Assambleyasının növbəti sessiyası işə başlayıb. AZƏRTAC xəbər verir ki, "ATƏT regionunda sülh və inkişaf naminə qarşılıqlı etimad və əməkdaşlığın möhkəmləndirilməsi" mövzusunda keçirilən sessiyada Milli Məclis sədrinin müavini, ATƏT PA-da Azərbaycan nümayəndə heyətinin rəhbəri Bahar Muradova çıxış edərək Ermənistan ordusunun növbəti təxribatından və Füzuli rayonunun Alxanlı kəndinin dinc sakinlərinin qətlə yetirilməsindən danışıb. Azərbaycan parlament sədrinin müavini deyib:

Həm beynəlxalq katibliyin, həm də bütövlükdə Parlament Assambleyasının fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı səylərinə, ATƏT-in digər qurumları ilə daha səmərəli əməkdaşlıq qurmaq cəhdlərinə görə Cənubi Qafqaz üzrə xüsusi nümayəndəmiz cənab Viqeninə və baş katib Roberto Montellaya dərin minnətdarlığımı bildirirəm. Həmçinin sessiyamıza ATƏT-in Minsk Qrupunun həmsədrlərini dəvət etmək cəhdlərini vurğulamaq istəyirəm.

Xatırladım ki, 2011-ci ildə Xorvatiyada sessiyada həmsədrlərin Dağlıq Qarabağ münaqişəsinin həllinə dair fəaliyyətləri barədə onların hesabatlarını dinlədik. Müzakirələr aparıldı, deputatların onların işinə münasibət bildirmək, sual vermək imkanı oldu. Biz ümid edirik ki, bu təcrübədən gələcəkdə də istifadə olunacaq. Çünki deputatların məlumatlandırılması bu baxımdan faydalı ola bilər ki, biz də öz tərəfimizdən müəyyən töhfə verə, həmsədrlərin üzləşdikləri bu və ya digər məsələnin həllinə kömək edə bilərik. Mən ürəkdən inanıram ki, bütün təsisatlar arasında belə əməkdaşlıq və qarşılıqlı fəaliyyət bizim ümumi işimizə sanballı töhfə verə bilər.

Biz dinc vətəndaşların, oğullarımızın, qadınlarımızın və uşaqlarımızın həyatına son qoyan reallığı hər gün hiss edirik. Ölkəmin parlamentində təmsil etdiyim Füzuli rayonunun dinc kəndi iyulun 4-də Ermənistan silahlı qüvvələri tərəfindən yenə də minaatanlardan və qumbaraatanlardan atəşə tutulub. Bu atəş nəticəsində bir ailənin iki üzvü - qadın və onun iki yaşlı nəvəsi öz həyatlərində həlak olublar, yaralılar var. Təmas xətti boyunca sıx yaşayan dinc vətəndaşlara, o cümlədən qadınlara, qocalara və uşaqlara Ermənistan silahlı qüvvələri tərəfindən hücumlar təəssüf ki, sistemli xarakter daşıyır.

Konkret olaraq iyulun 4-də tökülən qana görə bütün məsuliyyət yenə də Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşür. Əlavə informasiya, o cümlədən şəkillər, Azərbaycan Xarici İşlər və Müdafiə nazirliklərinin rəsmi bəyanatları ilə müvafiq saytlarda tanış ola bilərsiniz. Yəqin ki, katibliyimiz də bu materialları sizə paylayacaq. Bu gün, ATƏT regionunda sülh və tərəqqi naminə qarşılıqlı etimadın möhkəmləndirilməsi məsələsini müzakirə etdiyimiz bir vaxtda mənim ölkəmdə, mənim torpağımda mənim həmvətənlərimin - qadınların və uşaqların qanının axıdıldığını görmək dəhşətlidir. Həlak olanları şəxsən tanımağım bu ağrını daha da şiddətləndirir.

Xatırladım ki, mən özüm də Füzuli rayonundan məcburi köçkünəm. Təmas xəttində yaşayan seçicilərim daim təhlükə altındadırlar.

O kəndlərdə ancaq dinc əhali yaşayır. Düşmən tərəfində isə Ermənistandan olan çağırışçılardan təşkil edilmiş silahlı qüvvələr yerləşir. Odur ki, biz deputatlar qan tökülməsinə son qoymaq və regionda həqiqətən sülhə və tərəqqiyə nail olmaq üçün sülh dialoquna yollar tapmalı və bu işə öz töhfəmizi verməliyik. Mən sizi bu cinayəti təkidlə pisləməyə çağırıram. Bu məsələdə Parlament Assambleyası xüsusi rol oynamalıdır.

# Fransada Azərbaycanın Dostları Assosiasiyası Ermənistanın son təxribatını pisləyib

Fransada Azərbaycanın Dostları Assosiasiyası iyulun 4-də Ermənistan silahlı qüvvələrinin Azərbaycanın Füzuli rayonunun Alxanlı kəndinin mülki əhalisinin və mülki obyektlərinin hədəflənmiş şəkildə atəşə tutması nəticəsində Quliyeva Sahibənin və onun nəvəsi 2 yaşlı Quliyeva Zəhranın həyatını itirməsi və Quliyeva Sərvinazın yaralanması, həmçinin mülki obyektlərə zərər dəyməsi ilə nəticələnən son hərbi təxribatını qətiyyətlə qınayır.

AZƏRTAC xəbər verir ki, bu fikirlər Fransada Azərbaycanın Dostları Assosiasiyasının sədri Jan Fransua Manselin Ermənistan silahlı qüvvələrinin növbəti təxribatı ilə bağlı verdiyi bəyanatda yer alıb. Bəyanatda deyilir: "Azərbaycanın Dostları Assosiasiyası Azərbaycan ərazilərinin Ermənistan tərəfindən qeyri-qanuni işğalı səbəbindən baş vermiş bu təxribat nəticəsində mülki şəxslərin həlak olması ilə əlaqədar kədərini ifadə edir və həlak olanların ailələrinə başsağlığı verir, həmçinin Azərbaycan xalqına öz dəstəyini bildirir. Ermənistanın mülki əhaliyə və mülki obyektlərə birbaşa və qəsdən hücumları, beynəlxalq humanitar hüququn və insan haqlarının, eləcə də 1949-cu il Cenevrə konvensiyaları, həmçinin uşaqların hüquqlarına və insan hüquqlarının müdafiəsi dair Konvensiyanın ciddi şəkildə pozulmasıdır. Münaqişənin həlli ilə məşğul olan Minsk qrupunda təmsil olunan ölkələr tərəfindən məsələnin həllinin ləngidilməsi uzun illərdir ki, ədalətsiz status-kvonu qoruyub saxlayır və bu, yalnız faciəvi qarşıdurmalara gətirib çıxarır. Azərbaycanın Dostları Assosiasiyası arzu edir ki, əlaqədar dövlətlər ən qısa müddətdə öz münasibətlərini bildirsinlər və BMT Təhlükəsizlik Şurası tərəfindən qəbul edilən dörd qətnamənin (822, 854, 874 və 884) yerinə yetirilməsini təmin etsinlər.

Sonda Assosiasiya bütün tarixi həqiqətlərin əksinə olaraq özü başlatdığı münaqişədə özünü qurban kimi qələbə verməyə cəhd edən Ermənistanı Dağlıq Qarabağ və ətraf rayonların qeyri-qanuni işğalının davam etdirilməsinin mümkünsüzlüyünü anlamağa çağırır.

# Dövlət Baytarlıq Xidmətində səyyar müşavirə keçirilib

***İyulun 5-də Naxçıvan Muxtar Respublikası Dövlət Baytarlıq Xidmətində 2016-2017-ci illərdə baytarlıq xidməti sahəsində görülmüş işlər və qarşıda duran vəzifələrlə bağlı səyyar müşavirə keçirilib.***





Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov müşavirədə çıxış edərək deyib: Muxtar respublikada kənd təsərrüfatının, eləcə də onun aparıcı sahələrindən olan heyvandarlığın inkişafı daim diqqət mərkəzində saxlanılır. Son illər heyvandarlıqla məşğul olan təsərrüfat subyektlərinə maliyyə dəstəyinin gücləndirilməsi, məhsuldar cins mal-qaranın alınıb gətirilməsi, süni mayalandırmanın tətbiqi, qarışıq yem istehsalı müəssisələrinin fəaliyyətə başlaması, təbii yem və otlaq sahələrinin su təminatının yaxşılaşdırılması, həmçinin qəbul olunmuş dövlət proqramlarında nəzərdə tutulan vəzifələrin icrası heyvandarlığın inkişafına öz təsirini göstərmişdir. 2000-ci illə müqayisədə 2017-ci ilin ötən dövründə muxtar respublikada iribuynuzlu mal-qaranın və xırdabuynuzlu heyvanların sayı 2 dəfəyədək artmışdır. Bu hesaba daxili bazarda heyvan mənşəli ərzaq məhsullarının istehsal həcmində artım əldə olunmuşdur.

Qeyd olunub ki, keyfiyyətli və təhlükəsiz heyvandarlıq məhsulları istehsalına nail olunması müasir dövrdə qarşıda duran əsas vəzifələrdəndir. Çünki sağlam qida sağlam insan deməkdir. Ona görə də insanların sağlamlıqlarının qorunması tədbirlərinə ilk növbədə baytarlıq xidmətində fəaliyyəti səmərəli təşkil etməklə başlamaq lazım idi. Bu amil nəzərə alınaraq muxtar respublikada baytarlıq təbabəti dövrün tələblərinə uyğun qurulub, müasir infrastruktur yaradılıb, maddi-texniki baza möhkəmləndirilibdir. Yerlərdə xidmətin fəaliyyətini gücləndirmək və nəzarət tədbirlərini yaxşılaşdırmaq məqsədilə istifadəyə verilən hər bir kənd mərkəzində baytarlıq məntəqələri üçün lazımi avadanlıqlarla təchiz olunmuş iş yerləri ayrılıb. Muxtar respublikada baytarlıq təbabəti üzrə ixtisaslı kadrların hazırlanmasına da diqqət artırılıb. Naxçıvan Dövlət Universitetində və Naxçıvan Dövlət Texniki Kollecində müvafiq ixtisaslar üzrə kadr hazırlığı həyata keçirilir.

Ali Məclisin Sədri deyib: Heyvandarlığın inkişafında müsbət dinamikanın qorunub saxlanması, məhsuldarlığın artırılması və müxtəlif xəstəliklərə qarşı mübarizə tədbirlərinin vaxtında aparılması üçün Baytarlıq Xidməti fəaliyyətini daha da gücləndirməlidir. Xidmət yaradılmış şəraitdən düzgün istifadə edərək epizootik sabitliyi qoruyub saxlamalı, heyvanlar arasında peyvəndləmə, diaqnostik müayinə və digər tədbirlərin səmərəli təşkilinə nail olmalı, istifadə olunan dərmanların keyfiyyətinə və saxlanılma şəraitinə ciddi nəzarət edilməlidir. Naxçıvan şəhərində və rayon mərkəzlərində heyvandarlıq-arıçılıq sahələri üzrə əczaxanaların yaradılması davam etdirilməlidir.

Müşavirədə vurğulanıb ki, heyvandarlığın inkişafında intensiv metodlara daha çox üstünlük verilməlidir. Mövcud mal-qaranın cins tərkibinin yaxşılaşdırılması, məhsuldarlığın yüksəldilməsi, təbii yolla keçən xəstəliklərin qarşısının alınması məqsədilə süni mayalanma tədbirlərinin əhatə dairəsi və əhali arasında maarifləndirmə işləri genişləndirilməlidir. Süni mayalanma işinin səmərəliyini artırmaq üçün keyfiyyətli toxum bankı yaradılmalı, bu sahə üzrə mütəxəssislərin peşəkarlıq səviyyəsi yüksəldilməlidir. Məhsuldarlığı daha da artırmaq, heyvanlara zootexniki qaydalara uyğun qulluq göstərilməsini, eləcə də daim baytar nəzarəti altında olmasını təşkil etmək məqsədilə müasir standartlara uyğun özəl iri damazlıq təsərrüfatlarının yaradılması bundan sonra da diqqətdə saxlanılmalıdır.

Ali Məclisin Sədri deyib: Sərhəd yaşayış məntəqələrində dezinfeksiya işlərinin aparılmasına, epizootik vəziyyətin təhlilinə nəzarət gücləndirilməli, aşkar olunan xəstəliklərə qarşı operativ tədbirlər görülməlidir. Baytarlıq Xidməti mütəmadi olaraq heyvanların yaylaqda saxlanma şəraiti ilə maraqlanmalı, mövsümə uyğun peyvəndləmə tədbirlərinin aparılmasını təmin etməlidir. Yerli arı genefondunun mühafizəsi, arı xəstəliklərinin qarşısının alınması üçün qabaqcıl təcrübənin öyrənilməsi və tətbiqi ilə bağlı sahibkarlar arasında maarifləndirici tədbirlər görülməlidir. Ali və orta ixtisas məktəblərində baytarlıq təbabəti ixtisası üzrə təhsil alan tələbələrin təcrübi biliklərinin daha da möhkəmləndirilməsi üçün yaradılmış şəraitdən səmərəli istifadə edilməlidir.

Ali Məclisin Sədri çıxışını aqrar sahənin inkişafının vacibliyini və əhəmiyyətini qeyd edən ölkə Prezidenti cənab İlham Əliyevin fikirləri ilə tamamlayıb: “Kənd təsərrüfatı ilə bağlı məsələlər xüsusi diqqət tələb edir. Çünki bu sahə həm məşğulluqdur, həm inkişafdır, həm də ixracdır”.

Naxçıvan Muxtar Respublikasının kənd təsərrüfatı naziri Elşad Əliyev çıxış edərək deyib ki, əhalini ilboyu heyvandarlıq məhsulları ilə təmin etmək aqrar sahədə qarşıda duran əsas vəzifələrdəndir. Hazırda muxtar respublikada 235 böyük heyvandarlıq, 65 quşçuluq, 102 arıçılıq, 15 balıqçılıq təsərrüfatı fəaliyyət göstərir. Göstərilən dövlət qayğısının nəticəsidir ki, hazırda muxtar respublikada 3 ət, 12 süd, 1 gön-dəri emalı, 1 balıq konserv, 1 yem istehsalı müəssisəsi və 2 yem sexi fəaliyyət göstərir. Heyvandarlıqda damazlıq təsərrüfatlarının inkişafı əsas məsələlərdən biridir. 2009-2015-ci illərdə “Naxçıvan Aqrolizinq” ASC-nin xətti ilə muxtar respublikaya 1937 baş düyə alınıb gətirilərək lizinq yolu ilə sahibkarlara verilib. Damazlıq və süni mayalama tədbirləri mal-qaranın cins tərkibinin yaxşılaşdırılmasına və heyvandarlıq məhsullarının intensiv artımına səbəb olub. Süni mayalanma yolu ilə alınmış hər baş buzova görə heyvan sahiblərinə 100 manat həcmində subsidiyanın verilməsi bu sahəyə olan marağı daha da artırıb.

Naxçıvan Muxtar Respublikası Dövlət Baytarlıq Xidmətinin rəisi Əbil Əbilov deyib ki, Dövlət Baytarlıq Xidmətinin və laboratoriyaların maddi-texniki bazası möhkəmləndirilib, müasir tələblərə cavab verən məntəqələr yaradılıb. Bu gün Naxçıvan Muxtar Respublikası Dövlət Baytarlıq Xidməti muxtar respublikada mövcud olan 117 min başdan çox iribuynuzlu, 728 min başdan artıq xırdabuynuzlu heyvanların, 1 milyon başdan çox quşların, 70 min arı ailələrinin, o cümlədən vəhşi heyvanların yarada biləcəyi epizootoloji vəziyyəti nəzarətdə saxlayır. 2016-cı il ərzində və 2017-ci ilin müvafiq dövründə muxtar respublikada qarayara, quduzluq, dabaq, brusellyoz, vərəm, çiçək, pasterellyoz, quşlarda taun, o cümlədən arı xəstəliklərinə qarşı epizootiya əleyhinə tədbirlər aparılıb. Bu gün əsas məsələ qeyd olunan xəstəliklərin yarada biləcəyi bioloji, zoonotik, yoluxucu təhlükələrin aradan qaldırılmasından ibarətdir. Göstərilən yüksək dövlət dəstəyi, təsdiq olunmuş tədbirlər planı, koordinasiyalı fəaliyyət, yaradılmış kadr potensialı, maddi-texniki cəhətdən təchiz olunmuş laboratoriyalar qarşıya qoyulan məqsədə nail olmağa imkan verir. Əbil Əbilov Dövlət Baytarlıq Xidmətinin kollektivi adından göstərilən qayğıya görə minnətdarlıq edib.

Sonra Ali Məclisin Sədri Dövlət Baytarlıq Xidmətinin işdə fərqlənən əməkdaşlarına xalça və saat hədiyyə edib, texniklərə yeni alınan 3 ədəd süni mayalandırma avadanlığı təqdim olunub.

Ali Məclisin Sədri baytarlıq xidməti əməkdaşları ilə söhbət zamanı deyib: Baytarlıq təbabətinin düzgün təşkili cəmiyyətin sağlamlığına xidmət edir. Həyata keçirilən tədbirlərin nəticəsidir ki, muxtar respublikada epizodik vəziyyət sabitdir. Yaz və payız aylarında təsərrüfatlarda dezinfeksiya işləri aparılır, sağlam heyvandarlıq məhsulları istehsal olunur. Naxçıvan Dövlət Universitetində və Naxçıvan Dövlət Texniki Kollecində müvafiq ixtisaslar üzrə kadr hazırlığı bu sahədə varisliyi təmin edir. Muxtar respublikada baytarlıq təbabəti üzrə kadr hazırlığı bundan sonra da diqqətdə saxlanmalı, Dövlət Baytarlıq Xidmətinin əməkdaşları daim öz üzərlərində işləməli, bilik və təcrübələrini artırmalıdırlar. Həkim baytarlar mütəmadi olaraq təsərrüfatlarda olmalı, baytarlıqda elmi metodlarla yanaşı, xalq təbabətindən də geniş istifadə olunmalıdır. Rayon icra hakimiyyətləri süni mayalandırma təbirlərinə, mal-qaranın cins tərkibinin yaxşılaşdırılmasına, məhsuldarlığın artırılmasına və heyvanların saxlanma şəraitinə diqqəti artırmalıdırlar.

Ali Məclisin Sədri Baytarlıq Xidmətinin əməkdaşlarına təşəkkür edib, onlara gələcək işlərində uğurlar arzulayıb.

# Azərbaycan tərəfi münaqişənin həlli üçün digər vasitələrə əl atacağı təqdirdə...

*Bütün məsuliyyət Ermənistan dövlətinin və şəxsən Serj Sarkisyanın üzərinə düşür!*

***Ermənistan silahlı qüvvələrinin iyulun 4-də Azərbaycanın mülki əhalisini və yaşayış məntəqələrini artilleriya qurğuları, minaatanlar və digər iriçaplı silahlardan intensiv surətdə atəşə tutması nəticəsində, yaşlı qadın və onun 2 yaşlı nəvəsinin öldürülməsi, digər sakinlərin yaralanması, mülki əhalinin məskunlaşdığı yaşayış məntəqələrinin dağıdılması və zərər vurulması müvafiq beynəlxalq konvensiyalara zidd olmaqla yanaşı, bir daha terrorçu Ermənistan rejiminin qaniçən mahiyyətini, şəxsən prezident Serj Sarkisyanın Azərbaycan xalqına qarşı düşmənçilik münasibətini əyani şəkildə nümayiş etdirdi.***



Digər tərəfdən, cəbhə xətti boyunca Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycan əhalisinin sıx yaşadığı ərazilərin hədəfə alınması da növbəti dəfə sübut edir ki, mütəmadi olaraq, törədilən bu kimi qanlı təxribatların məqsədi dinc sakinləri öldürmək, yerli əhali arasında psixoloji gərginlik yaratmaqdır. Çünki mövcud hal birinci dəfə yaşanmır. Məhz bu baxımdan, belə qənaətə gəlmək mümkündür ki, Ermənistan silahlı qüvvələrinin ardıcıl və davamlı şəkildə ağır silahlardan açdığı atəş nəticəsində 2 yaşlı uşağın qətlə yetirilməsi Ermənistandakı hökumətinin Xocalı faciəsində törətdiyi amansız qətliamın davamı və eyni qaniçən zehniyyətin növbəti məhsuludur.

**Təəssüfedici hal budur ki, beynəlxalq aləm kəsərsiz, başdan edilmiş açıqlamalarla öz işlərini bitmiş hesab edir**

Ötən il - 2016-cı il aprel ayının əvvəlində Ermənistan silahlı qüvvələri işğal olunmuş ərazilərdəki mövqelərindən qoşunların təmas xəttinə yaxın ərazilərdə sıx yaşayan mülki əhalini ağır silahlardan hədəfə alaraq, nəticədə, Azərbaycanın 34 yaşayış məntəqəsini və kəndini artilleriya atəşinə məruz qoymuşdu. Belə ki, işğalçılar tərəfindən törədilən vandalizm aktı nəticəsində aralarında uşaqlar da olmaqla, 6 nəfər həlak olmuşdu və 33 nəfər ağır yaralanmışdı. Eyni zamanda, məktəblər, xəstəxanalar, təsərrüfat obyektləri ağır artilleriyanın aramsız hücumlarına məruz qalmış, ciddi zərər görmüşdülər. Bütün bu faktlar bir daha sübut edir ki, cinayətkar Ermənistan rəhbərliyi mülki, yaxud qeyri-mülki olmasından asılı olmayaraq, daha çox insan öldürməyi hədəf kimi seçib. Daha dəqiqi, Ermənistan ordusu daimi olaraq, Azərbaycanın mülki sakinlərini və yaşayış məntəqələrini hədəfə alır. Lakin təəssüfedici və acınacaqlı haldır ki, dünyanın digər bölgələrində bu cür qeyri-insani aktlar beynəlxalq ictimaiyyətin ciddi qınağı və təzyiqi ilə üzləşsə də terroru dəstəkləyən və bilavasitə, onu dövlət siyasətinin prioritet istiqamətinə çevirmiş Ermənistana münasibətdə beynəlxalq təşkilatlar susqunluq nümayiş etdirir və yaxud bir neçə kəsərsiz, başdan edilmiş açıqlama ilə öz işlərini bitmiş hesab edirlər.

Sual yaranır ki, məhz iyulun 4-də baş vermiş ürək ağrıdan hadisə - dinc sakinlərin, xüsusən də, 2 yaşlı körpənin vəhşicəsinə qətl edilməsi beynəlxalq təşkilatların nəzərində Ermənistandakı rejimə təzyiq etmək üçün kifayət qədər ciddi və faciəli hadisə deyilmi?!

**Cəzasızlıq mühiti Ermənistanın heç bir beynəlxalq konvensiyaya, bu konvesiyalardan irəli gələn öhdəliklərə məhəl qoymamasına zəmin yaradır**

Onu da vurğulayaq ki, Ermənistanın dinc sakinləri ölkələrindəki quldur rejimin repressiyalarından qaçaraq, Azərbaycana pənah gətirir və burda beynəlxalq hüququn norma və prinsiplərinə uyğun olaraq qarşılanılar. Azərbaycanın dinc sakinləri isə Ermənistan dövləti tərəfindən qətlə yetirilir, onların təsərrüfatları, şəxsi əmlakları ağır silahlarla dağıdılır. Bütün bunlar, bir daha sübut edir ki, cəzasızlıq mühiti Ermənistanın heç bir beynəlxalq konvensiyaya, bu konvesiyalardan irəli gələn öhdəliklərə məhəl qoymamasına zəmin yaradır.

Ermənistanın Azərbaycanın mülki əhalisinə və mülki obyektlərə birbaşa və qəsdən hücumları, beynəlxalq humanitar hüququn və insan haqlarının, xüsusilə 1949-cu il Cenevrə konvensiyaları və ona 1 saylı Əlavə, həmçinin, Uşaqların hüquqlarına və İnsan Hüquqlarının Müdafiəsi və Fundamental Azadlıqlara dair Konvensiyanın ciddi şəkildə pozulmasıdır.

**Ermənistan Cənubi Qafqazın təhlükəsizliyi üçün ciddi təhdid rolunu oynayır**

1992-ci ildə Ermənistan tərəfindən Azərbaycan torpaqları işğal edilərkən Dağlıq Qarabağ münaqişəsi ilə bağlı BMT Təhlükəsizlik Şurası 4 qətnamə qəbul edib və bu qətnamələrin hər birində Azərbaycanın işğal olunmuş ərazilərinin qeyd-şərtsiz boşaldılması, dinc əhalinin geri qaytarılması ilə bağlı tələb irəli sürülüb. Ermənistan, nəinki bu mötəbər beynəlxalq təşkilatın qərarlarına əməl etmir, hətta öz işğalçılıq siyasətini dinc əhalini qətlə yetirməklə, daha da möhkəmləndirməyə çalışır.

Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazilərində qeyri-qanuni mövcudluğu və qoşunların təmas xəttinin yaxınlığında yaşayan azərbaycanlı əhalinin, müntəzəm olaraq atəş altında saxlanılması, onların qətlə yetirilməsi münaqişənin sülh yolu ilə həll olunmasına mane olmaq üçün Sarkisyan rejimi tərəfindən məqsədli şəkildə atılan addımlardır. 4 iyul 2017-ci ildə erməni silahlı birləşmələrinin növbəti dəfə Azərbaycanın dinc sakinlərini qətlə yetirməsi kifayət qədər isbat etdi ki, Ermənistan dövləti regionda sülh və əmin-amanlığın, asayişin bərqərar olmasını istəmir və özünün təcavüzkar davranışları, beynəlxalq hüququn norma və prinsiplərinə zidd dövlət siyasəti ilə Cənubi Qafqazın təhlükəsizliyi üçün ciddi təhdid rolunu oynayır. Sarkisyan rejiminin reallaşdırdığı son qanlı aksiyalar da göstərdi ki, Dağlıq Qarabağ münaqişəsi dondurulmuş münaqişə deyil, sadəcə olaraq, Azərbaycanın sülhpərvər siyasəti münaqişənin alovlanmasının qarşısını alır.

Bu baxımdan, işğalçı və cinayətkar rejim bir faktı dərk etməyə məhkumdur - Azərbaycan tərəfi münaqişənin həlli üçün digər vasitələrə əl atacağı təqdirdə, bütün məsuliyyət Ermənistan dövlətinin üzərinə düşür!

**Rövşən RƏSULOV**

# Hikmət Hacıyev: Ermənistanın siyasi hakimiyyətinin məqsədi münaqişənin həllinə maneə yaratmaqdır




Ötən gün Ermənistan silahlı qüvvələrinin bölmələrinin Füzuli rayonunun Alxanlı kəndini minaatanlardan və dəzgahlı qumbaraatanlardan atəşə tutması nəticəsində iki nəfərin, o cümlədən azyaşlının həlak olması və bir nəfərin yaralanması ilə əlaqədar Xarici İşlər Nazirliyi xarici ölkələrdəki nümayəndəliklərimizə tapşırıq verib ki, Azərbaycanın narahatlığını beynəlxalq ictimaiyyətin diqqətinə çatdırsın.

AZƏRTAC xəbər verir ki, bunu iyulun 5-də keçirilən mətbuat konfransında Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyev deyib.

H.Hacıyev bildirib ki, bu hadisə status-kvonun dəyişdirilməsinin vacibliyini bir daha sübut etdi. ATƏT-in Minsk Qrupunun həmsədrlərinin regiona səfərindən dərhal sonra bu cür hadisənin baş verməsi göstərir ki, Ermənistanın siyasi hakimiyyətinin məqsədi münaqişənin həllinə maneə yaratmaq və gərginliyi artırmaqdır. Bununla əlaqədar Azərbaycanın xarici işlər nazirinin ATƏT-in Minsk Qrupunun rusiyalı və fransalı həmsədrləri ilə telefon danışığı olub və ölkəmizin narahatlığı onların diqqətinə çatdırılıb.

# İki Sarqsyan: baba və qatil

Füzuli rayonunun Alxanlı kəndi Ermənistan ordusunun işğal etdikləri Azərbaycan torpaqlarından intensiv atəşə məruz qaldı. Dinc sakinlər öldü və yaralandı. Ölənlər arasında iki yaşlı Zəhranın olması insanları bir daha düşündürdü, Azərbaycanın hansı ölkə ilə müharibə apardığı, onun rəhbərinin uşaq qatili olduğu bir daha təsdiq olundu. Bir daha unudulmayan, qan yaddaşımız olan Xocalı soyqırımı yada düşdü. Özünü humanist millət kimi təqdim edən ermənilərin iç üzü göründü, maskasının yamağı yırtıldı...



Yazının yuxarısına qoyduğumuz şəklə diqqətlə baxın: Bu, Ermənistanın prezidenti, qucağındakı isə onun, yeni silahlı qüvvələrinin ali baş komandanı Serj Sarqsyanın nəvəsidir. Yanındakı şəkil isə dünən Sarqsyanın əmri ilə öldürülən iki yaşlı Zəhradır. Dünya ictimaiyyəti hələ də susur. Uşaq qatilinə heç bir büynəlxalq qurum demir ki, 25 ildir Azərbaycan torpaqlarını niyə işğal etmisən, sənin və ordunun Füzulidə nə ölümü var? Bəli, dünya ölkələri, həmsədr dövlətlər susur. Onlar kiçik Zəhranın ölümünə, öldürülməsinə susurlar. Niyə? Ona görə ki, Zəhra azərbaycanlıdır, onun valideynləri işğalçı Ermənistan ordusundan qorxmur? Bəs insanlıq harda qaldı, CƏNABLAR?

# Sarkisyanın öldürdüyü azərbaycanlı uşaqlar

*Zəhra Quliyevanın öldürülməsi Ermənistanda terrorun dövlət siyasəti səviyyəsinə yüksəldiyini bütün qabarıqlığı ilə bir daha aşkara çıxarır*





***Terroru açıq şəkildə dəstəkləyən, "ÇKAC", "ASALA" kimi terror təşkilatlarına himayədarlıq edən Ermənistan dövlətinin silahlı birləşmələri cəbhə xəttində atəşkəsi mütəmadi pozmaqla yanaşı, həm də dinc sakinlərin ev-eşiklərini, əkin sahələrini, yaşayış məntəqələrimizi müxtəlif çaplı silahlarla atəşə məruz qoyurlar. Heç şübhəsiz ki, mənfur erməninin çirkin xislətinə hər birimiz bələdik, Azərbaycan əsgəri ilə üz-üzə gəlməkdən qorxan erməni silahlı birləşmələri yaşayış məntəqələrimizi atəşə tutmaqla, özlərini "qorxmaz" göstərməyə çalışırlar.***

Həmçinin, dinc sakinlərin yaşadığı əraziləri və kəndlərimizi atəşə tutmaqla Ermənistan siyasi rəhbərliyi, şəxsən Serj Sarkisyan etiraf edir ki, o, fahişə xislətli işğalçıdır, uşaqları, qadınları öldürmək onun əsas məqsədidir. Biz bunu 1992-ci ildə də gördük... Sarkisyanın əlləri Xocalı şəhidlərinin qanına batıb. Ötən ilin aprel ayında cəbhədə aparılan hərbi əməliyyatlar zamanı ağır məğlubiyyətə uğrayan Ermənistan bu gün də başını itirmiş formadadır, ona görə də, ən çirkin üsullarla kənd əhalisini atəşə tutur. Lakin cəbhə xəttində yerləşən kəndlərimizin sakinləri illərdir orada düşməndən qorxmadan yaşayırlar. Dağlıq Qarabağ münaqişəsinin dinc yolla tənzimlənməsi məqsədilə bu günə qədər aparılan danışıqlarda hər hansı irəliləyiş, razılıq əldə olunduğu zaman Ermənistan silahlı qüvvələri cəbhə bölgəsində müxtəlif təxribatlar törədiblər. Bu təxribatların qarşısı Azərbaycan hərbçiləri tərəfindən alınanda, düşmənə sarsıdıcı zərbələr vurulanda isə, qarşı tərəf bunun qisasını daim mülki əhalidən çıxmağa çalışıb.

Məsələnin ən dəhşətli tərəfləri var. Cəbhə xəttində bir erməni dığasının burnu qanayan kimi ATƏT-in Minsk Qrupuna daxil olan həmsədr ölkələrin sözçüləri az qalırlar ki, Ermənistana gedib Sarkisyanın əl-ayağına düşsünlər. Lakin Sarkisyanın sifarişi ilə körpə uşaqlarımız qətlə yetirilir, ancaq ATƏT-in Minsk Qrupunun həmsədrləri hələ də susqunluq nümayiş etdirirlər. Guya danışsalar nə olacaq ki...

Atəşkəs dövründə ermənilər mülki əhalinin yaşadığı ərazilərə indiyə qədər saysız-hesabsız hücumlar ediblər, dinc sakinlərimizi öldürüblər, şikəst ediblər, insanların əkin sahələrini güllləbaran etməklə məhsullarını məhv ediblər. Ermənistan silhalı qüvvələrinin Azərbaycanın mülki əhalisinə qarşı törətdiyi bəzi təxribatların xronologiyasını təqdim edirik. 2011-ci il martın 8-də Ağdamın işğal olunmuş Şıxlar kəndi istiqamətində erməni snayperinin atəş açması nəticəsində, Orta Qərvənd kənd sakini 9 yaşlı azərbaycanlı Fariz Bədəlov həyatını itirib. Həmin vaxt balaca Fariz başından ağır yaralanıb və xəstəxanaya aparılarkən dünyasını dəyişib.

2016-cı ildə Azərbaycanın Tovuz rayonunun Ermənistanla həmsərhəd olan Əlibəyli kəndində düşmənə məxsus partlayıcı qurğunun işə düşməsi nəticəsində 1998-ci il təvəllüdlü Şahmalıyeva Aygün Zirəddin qızı həlak olub, onun anası 1979-cu il təvəllüdlü Şahmalıyeva Elnarə Məmmədtağı qızı isə ağır xəsarət alıb. Araşdırmalar zamanı məlum olub ki, partlayıcı qurğu quraşdırılmış uşaq oyuncağı ermənilər tərəfindən Əlibəyli kəndinə daxil olan Tovuz çayına buraxılıb. Həmin ərazidə oynayan Cəfərov Elsəvər Həsən oğlu və Şahmalıyeva Aygün Zirəddin qızı oyuncağı taparaq, Cəfərov Həsənin evinə gətiriblər. Evdə oynayan zaman Aygün Şahmalıyeva oyuncağı masanın üstünə vurub və nəticədə partlayış baş verib.

2016-cı il iyulun 14-də erməni silahlı bölmələrinin açdığı atəş nəticəsində isə, Tovuzun Ermənistanla təmas xətində yerləşən Əlibəyli kəndində 12 yaşlı Nərmin Xanbabayeva, onun 8 yaşlı qardaşı Tuncay və 44 yaşlı Durdanə Nağıyeva ağır yaralanıblar. 2016-cı il aprelin 4-də Ağdam rayonunun Sarıcalı kəndinə ermənilərin ağır artilleriyadan açdığı atəşlər nəticəsində 3 mülki şəxs həlak olub, 5 yerli sakin yaralanıb. Həmçinin, işğalçı qüvvələr təmas xəttində yerləşən məktəblərə, infrastruktur obyektlərinə, mülki əhaliyə ciddi ziyan vurublar.

2016-cı il aprelin 4-də düşmən Ağdam rayonunun Əhmədağalı kəndinə mərmi atıb. Nəticədə Dadaşov Qaraş Şahlar oğlu həlak olub, onun otardığı qoyunlar isə tələf olub.

Ötən il aprelin 4-ü axşam saatlarında ermənilər Ağdamın cəbhə xəttindən xeyli uzaqda yerləşən Üçoğlan kəndini reaktiv artilleriyadan və toplardan atəşə tutublar. Kənd sakinlərindən Bəxtiyar İbrahimovun evi tamamilə yanıb. Bəylər Əkbərov və Ədalət Məhərrəmovun isə evlərinin dam örtüyü və həyətlərindəki tikililər dağılıb. Hadisə nəticəsində Ədalət Məhərrəmovun bacısı qızı, 16 yaşlı Pakizə Məhərrəmli baş nayihəsindən yaralanıb.

Ermənilərin növbəti təxribatlarından biri də bu il aprelin 6-da günorta saatlarında baş verib. Düşmənin silahlı qüvvələrinin bölmələri 60 millimetrlik minaatanlardan istifadə etməklə, Tərtər rayonunun Qapanlı kəndini atəşə tutublar. Hadisə nəticəsində Qapanlı kəndində iki həyətə 4 ədəd 60 mm-lik mərmi düşüb. Mülki əhalinin şəxsi təsərrüfatına ziyan dəyib.

2017-ci il iyul ayının 4-də saat 20:40 radələrində Ermənistan silahlı qüvvələri tərəfindən Füzuli rayonunun Alxanlı kəndi 82 və 120 millimetrlik minaatanlardan və dəzgahlı qumbaraatanlardan atəşə tutulub. Ermənistan tərəfinin bu təxribatı nəticəsində kənd sakinləri 1967-ci il təvəllüdlü Quliyeva Sahibə İdris qızı və 2015-ci il təvəllüdlü Quliyeva Zəhra Elnur qızı həlak olublar. Atəş nəticəsində qəlpə yarası alan 1965-ci il təvəllüdlü Quliyeva Sərvinaz İltifat qızı xəstəxanaya çatdırılaraq əməliyyata götürülüb.

Azərbaycanlı uşaqları ən qəddar üsullarla qətlə yetirmək ermənilərin əsas məqsədidir. Hələ 1988-ci ildə azərbaycanlılar Ermənistan SSR-dəki doğma yurd yerlərindən zorla qovulan zaman 216 soydaşımız qətlə yetirilib ki, onların da 23-ü uşaqdır. Ancaq şahidlər öldürülən uşaqların sayının daha çox olduğunu deyirlər. 1988-ci il dekabrın 5-də ermənilər Hamamlı şəhərində (Spitak) 17 azyaşlı uşağı iri diametrli boruya doldurara, hər iki tərəfini qaynaq ediblər. Borunu hündür uçurumdan dərəyə ataraq, fidanları qətlə yetiriblər. Həmin ilin noyabrında Quqarkda (Qarakilsə-Pəmbək mahalı) 70-ə yaxın 5-12 yaşlarındakı uşaqları yenə boruya dolduraraq, hər iki tərəfini bağlayıblarmış. Qətliamın üstü yalnız 1988-ci ilin dekabrında baş verən zəlzələ zamanı köməyə gələn fransalı xilasedicilər açıblar. 1989-cu ildə Kərkicahanda 9 yaşlı Nicat və 11 yaşlı Nadir İbrahimov ermənilər tərəfindən güllələnib. Xocalıda öldürülən 613 nəfərdən 63-ü uşaq idi.

Erməni silahlı birləşmələrinin dinc sakinləri, məsum körpələri qəddarcasına qətlə yetirmələrinin qısa statistikası Sarkisyanın cinayətkar hakimiyyətinin iç üzünü və Ermənistanda terrorun dövlət siyasəti səviyyəsinə yüksəldiyini bütün qabarıqlığı ilə bir daha aşkara çıxarır.

***Samir***

## ATƏT PA-da Azərbaycan nümayəndə heyətinin rəhbəri erməni deputatın çıxışına tutarlı cavab verib



İyulun 5-də Minsk şəhərində ATƏT Parlament Assambleyasının növbəti sessiyasında Ermənistanın bu qurumda nümayəndə heyətinin rəhbəri Ermine Naqdalyan çıxış edərək avropalı deputatların diqqətini ölkəsinin işğalçı hərbi qüvvələri tərəfindən törədilən növbəti qanlı cinayətdən yayındırmağa, erməni xislətinə xas olan hiyləgərliklə yalanlar uydurmağa çalışıb. AZƏRTAC xəbər verir ki, Ermine Naqdalyanın çıxışından sonra yenidən söz alan Azərbaycan Milli Məclisinin sədr müavini, ATƏT PA-da nümayəndə heyətimizin rəhbəri Bahar Muradova erməni deputata cavab verərək aşağıdakı fikirləri söyləyib: "Ötən ilin aprel hadisələrindən sonra Ermənistanda, eləcə də bütün dünyada Dağlıq Qarabağ münaqişəsi ilə bağlı reallığa daha yaxın mövqelər yaranmağa başladı. Bir sıra fikirlər sırasında Assambleyada yeni həmkarımız, eyni zamanda, o vaxt öz ölkəsinin parlamentinin sədr müavini xanım Ermine Naqdalyanın status-kvonun davam etdirilməsinin qeyri-mümkünlüyü və yolverilməzliyi barədə dediyi sözlər Ermənistanda əməlli-başlı səs-küyə səbəb oldu.

O vaxt E.Naqdalyanın söylədiyi sözləri sitat gətirirəm: "Ermənistan tərəfi Dağlıq Qarabağ ətrafında işğal edilmiş ərazilərə iddia etmir. Biz sahib olmadığımız torpaqlarınızı qaytaracağıq. Bu torpaqları istəmirik. Bu, bizim üçün yalnız bufer zonadır".

Naqdalyanın Ermənistan Milli Dirçəliş Partiyası üzrə həmkarları həmin vaxt onun bəyanatını pisləmiş, fikirlərini "arxadan vurulan zərbə" adlandırmışdılar. Həmkarımız o böhranlı dövrdə həqiqəti demişdi. Hətta öz partiyası tərəfindən hücumlara məruz qalmasına baxmayaraq, cəsarətlə reallıqlar, Ermənistanın işğalçılıq mövqeyi barədə fikirlərini söyləmişdi. Fürsətdən istifadə edərək, gec də olsa buna görə ona təşəkkür etmək istəyirəm. Bəs nə üçün bu gün - bir il keçəndən sonra tamamilə başqa yanaşma müşahidə olunur. Bunu başa düşmək olmur. Mənə belə gəlir ki, siz Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğalından danışanda indikindən daha səmimi idiniz. Burada hamı bilir ki, ərazinin işğal edilməsi beynəlxalq hüququn kobud şəkildə pozulması deməkdir və sonra baş verən bütün cinayətlərin səbəbi də budur. Beləliklə, sizin qeyd etdiyiniz bütün halların tam və ətraflı araşdırılması, kimliyindən asılı olmayaraq günahkarların məsuliyyətə cəlb olunması üçün ilk növbədə işğalı dayandırmaq lazımdır. ATƏT PA-nın tribunası cəsarətli bəyanatlar və çağırışlar üçün daha münasib yerdir".

## Azay Quliyev ATƏT PA-nın sessiyasında Ermənistanı barbar adlandırıb

ATƏT-in Parlament Assambleyasının vitse-prezidenti, Milli Məclisin deputatı Azay Quliyev iyulun 5-də Minskdə ATƏT PA-nın 26-cı illik sessiyasında çıxış edərək (https://www.youtube.com/watch?v=pxpWubcaMAg) Ermənistanın silahlı qüvvələrinin atəşi nəticəsində iyulun 4-də Füzuli rayonunun Alxanlı kəndində dinc sakinlərin qətlə yetirilməsi faktını sərt şəkildə qınayıb və həlak olmuş şəxslərin ailələrinə dərin hüznlə başsağlığı verib. AZƏRTAC xəbər verir ki, Azay Quliyev deyib: "Erməni silahlı birləşmələri qəsdən mülki əhalini hədəfə alaraq iki günahsız insanı - Sahibə Quliyeva və 2 yaşlı Zəhra Quliyevanı qətlə yetirib. Bu Ermənistanın Azərbaycan xalqına qarşı olan barbar və vəhşi hərəkətidir. ATƏT PA bu qəddar hücumları kəskin şəkildə pisləməlidir. Münaqişələrdə belə hallara heç vaxt icazə verilməməlidir. Düşünürəm ki, bu hərəkət azərbaycanlı mülki əhaliyə qarşı olan qəsdən, məqsədli şəkildə törədilmiş hücumdur. Bu kimi hallar beynəlxalq humanitar hüququn və insan hüquqlarının pozulmasıdır və birbaşa olaraq 1949-cu il 12 avqust tarixli Cenevrə Konvensiyasının müddəalarına və cəbhə xəttində uşaqların, mülki əhalinin hüquqlarını müdafiə edən digər əlavə protokollara ziddir. Minsk qrupunun həmsədrləri bu məsələ ilə məşğul olmalı və belə qəddar hücumları pisləməlidir, dərhal bu kimi hücumları dayandırmaq üçün addım atmalıdır".

Azay Quliyev bu gündən etibarən bütün hərbi və siyasi məsuliyyətin Ermənistanın üzərinə düşdüyünü bildirərək ATƏT PA-nın bu insidentlə bağlı səssiz qalmamasının və gələcəkdə cəbhə xəttində belə halların baş verməməsi üçün müvafiq addımlar atılmasının vacibliyini vurğulayıb. Qətlə yetirilən mülki şəxslər barədə Azərbaycan Xarici İşlər Nazirliyinin bəyanatı və onların şəkilləri sessiyada ATƏT PA-nın üzvlərinə paylanılıb.

# Bu gün Azərbaycan idmanı özünün yüksəliş dövrünü yaşayır

**Milli Olimpiya Komitəsinin vitse-prezidenti, Ədalətli Oyunlar Komissiyasının sədri, Dövlət Gömrük Komitəsinin İdman Sağlamlıq Mərkəzinin baş direktoru Xəzər İsayevin yap.org.az-a müsahibəsi**



***- Xəzər müəllim, bu gün idmanın inkişafı dövlətimizin xüsusi diqqət mərkəzindədir. Azərbaycanda idman sahəsinə göstərilən diqqətin nəticəsi olaraq əldə olunan nailiyyətlər barədə fikirlərinizi bilmək istərdik...***

- Azərbaycanda idmanın inkişafı, onun bütün ölkə boyunca kütləviliyinin təmin edilməsi daim diqqət mərkəzində saxlanılır. İdmanla bağlı dövlət siyasəti Ümummilli liderimiz Heydər Əliyevin ikinci dəfə hakimiyyətə gəlişindən sonra formalaşıb. Bilirsiniz ki, həmin dövrə qədər bizim əksər idman bazalarımız, idman qurğuları köhnəlmişdi və bu bazalarda idmanla məşğul olumaq üçün normal şərait yox idi. Ümummilli lider Heydər Əliyev 1993-cü ildə hakimiyyətə qayıtdıqdan sonra ölkə idmanının vəziyyəti ilə maraqlanmağa başladı və bu sahənin inkişafı üçün mühüm qərarlar verdi. Heydər Əliyevin idmanla bağlı verdiyi ilk qərarlar sırasında Azərbaycandan gedən idmançıların və məşqçilərin geri qayıtması və öz bayrağımız altında idman yarışlarında iştirak etmələri ilə bağlı idi. Bu yöndə də müsbət nəticələr əldə olundu. Olimpiya hərəkatında isə ilk uğurumuz 1996-cı ildə baş verdi. 1996-cı ildə yığma komandamız Atlanta Yay Olimpiya Oyunlarında iştirak etdi və həmin oyunlarda bir idmançımız gümüş medal qazandı.

1997-ci ildə cənab İlham Əliyevin Milli Olimpiya Komitəsinin prezidenti seçilməsi ilə Azərbaycanda idmanın sürətli inkişafı başladı. İlk olaraq idman infrastrukturu yenidən quruldu. Hazırda Bakıda və bölgələrdə 45-ə yaxın olimpiya bazaları tikilib istifadəyə verilib. Bu, idmanın inkişafı prosesində əsas bünövrələrdən biridir. Eyni zamanda, idmançıların stimullaşdırılması məsələsi daim diqqət mərkəzindədir. Bilirsiniz ki, dövlət tərəfindən nüfuzlu beynəlxalq yarışlarda Azərbaycanın bayrağını ucaldan idmançıların təltif olunması, onların məişət vəziyyətinin yaxşılaşdırılması və ictimai həyatda layiqli yer tutması üçün mühüm addımlar atılır.

Bütövlükdə, bu gün Azərbaycan idmanı özünün yüksəliş dövrünü yaşayır. Təsadüfi deyil ki, Azərbaycan çox mötəbər beynəlxalq idman yarışlarına ev sahibliyi edir. Bu tədbirlərin zirvələrindən biri isə mən deyərdim ki, 2015-ci ildə keçirilən Birinci Avropa Oyunları idi. Bilirsiniz ki, Birinci Avropa Oyunları ilə bağlı qərar veriləndə bizim cəmi 2,5 il vaxtımız var idi. Hansı ki, belə tədbirlərə başqa dövlətlər 4-5 sərf edirlər. Yəni, qarşımızda çox məsuliyyətli vəzifə dayanırdı. Qısa müddətdə ölkəmizdə xeyli sayda idman bazaları tikilib istifadəyə verildi. Azərbaycan bu ağır və şərəfli yükün altına girdi və alnıaçıq çıxdı. İlk Avropa Oyunlarının Təşkilat Komitəsinin sədri Mehriban xanım Əliyevanın rəhbərliyi ilə Azərbaycan bu mötəbər beynəlxalq idman tədbirinə yüksək səviyyədə ev sahibliyi etdi. Təbii ki, bütün görülən işlər Milli OLimpiya Komitəsinin prezidenti, dövlət başçısı İlham Əliyevin birbaşa diqqətində idi. İlk Avropa Oyunlarına yüksək səviyyədə ev sahibliyi etməklə Azərbaycan özünü dünyada ən güclü idman dövləti kimi tanıtdı.

***- Beynəlxalq idman yarışlarının yüksək səviyyədə keçirilməsi üçün idman infrastrukturunun vəziyyəti necədir?***

- Hazırda ölkəmizdə hər bir idman növündə olan yarışlar keçirilir və bunun üçün bütün imkanlar var. Bu fakt bir daha təsdiqləyir ki, Azərbaycan dünyanın idman mərkəzlərindən birinə çevrilib. Beynəlxalq təcrübədən bəllidir ki, müəyyən bir sektorun inkişafı o sahənin maddi-texniki vəziyyətinin yaxşılaşdırılması və intellektual, yenilikçi kadr potensialının yetişdirilməsindən asılıdır. Bu məsələnin Azərbaycan təcrübəsinə gəldikdə tərəddüdsüz qeyd etmək olar ki, Prezident İlham Əliyevin təşəbbüsü ilə ölkəmizin hər bir bölgəsində müasir idman komplekslərinin tikilərək yeniyetmələrin, gənclərin ixtiyarına verilməsi respublikamızda idmanın inkişafını təmin edib. Eyni zamanda, bir-birini əvəzləyən idman yarışları Bakının daha böyükmiqyaslı yarışlara ev sahibliyi etmək imkanlarını artırıb.

***- May ayında Azərbaycan IV İslam Həmrəyliyi Oyunlarına ev sahibliyi etdi. Sizcə, bu oyunların əhəmiyyəti nədən ibarətdir?***

- Ümumiyyətlə, beynəlxalq idman yarışlarının Azərbaycanda keçirilməsi haqqında qərarlar təsadüfən verilmir. Beynəlxalq Olimpiya Komitəsi, Avropa Olimpiya Komitəsi bundan sonra da müxtəlif tədbirləri Azərbaycana verməyə qərarlıdır. Bu qərarların ciddi əsasları var. Azərbaycanda təhlükəsizliyin, sabitliyin tam təmin olunması və əminaman ölkə olmağımız burada mühüm rol oynayır. Bu mənada IV İslam Həmrəyliyi Oyunlarının Azərbaycanda yüksək səviyyədə keçirilməsi xüsusi qeyd edilməlidir. Oyunların açılış və bağlanış mərasimləri çox möhtəşəm oldu, burada bizim tariximiz, mədəniyyətimiz əks etdirildi. Eyni zamanda, oyunlar çərçivəsində ölkəmizə gələn qonaqlar müasir Azərbaycanın mənzərəsi ilə tanış oldular.

Eləcə də, idmançılar üçün çox gözəl şərait yaradılmışdı. Bildiyim qədər dünyada belə təcrübə yoxdur ki, Bakıdakı kimi olimpiya kəndi tikilib istifadəyə verilsin. Başqa ölkələrdə belədir ki, olimpiya iştirakçılarının qalma yerləri müxtəlif ali məktəblərin bazalarında, yataqxanalarında reallaşır. Amma ölkəmizdə isə iştirakçılar üçün tam şərait yaradıldı.

Bütövlükdə İslam Həmrəyliyi Oyunları çox əhəmiyyətlidir. Həmrəylik sözünün mənası da böyükdür. 50-dən çox dövlətin həmrəy olub bu yarışlarda iştirak etməsi Azərbaycanın nüfuzunun birbaşa göstəricisidir. Çünki bütün müsəlman aləmi Azərbaycanda birləşərək öz həmrəyliklərini göstərdilər. Ölkəmizdə gələn oyunların iştirakçıları, eləcə də digər qonaqlar yüksək təəssüratlarla ayrıldılar. Azərbaycan bu oyunlar vasitəsilə özünün tarixini, mədəniyyətini və turizm potensialını da nümayiş etdirdi. Bu səbəbdəndir ki, oyunlara tamaşa etmək üçün Bakıya gələn insanlar yenə də Azərbaycana qayıdacaqlarını deyirdilər.

***- Bir neçə gün öncə Bakıda "Formula-1" Azərbaycan Qran-Prisi keçirildi. Bu barədə təəssüratlarınız necədir?***

- Ümumiyyətlə, "Formula-1" hər bir ölkədə baş tuta bilən yarış deyil. Yəni bu yarış hansısa ölkədə bir dəfə keçirilirsə, 4 il də ardıcıl olaraq keçirilməlidir. Bu şərtdir. "Formula-1" populyar bir idman növüdür. Azərbaycan ikinci ildir ki, bu yarışa ev sahibliyi etdi. Yarışın lazımi səviyyədə keçirilməsi üçün bütün imkanlar yaradılmışdı. Eyni zamanda, bu yarış dünyanın bir çox ölkələrində birbaşa translasiya olunurdu və bunun nəticəsində on milyonlarla insan "Formula-1"i birbaşa izləmək imkanı əldə etdi. Həmçinin, xeyli sayda əcnəbi bu yarışları izləmək üçün Bakıya gəlmişdi. Yəni, belə tədbirlərin keçirilməsi ölkəmizə turist axınını da gücləndirir.

***- Xəzər müəllim, Azərbaycan idmançılarının da beynəlxalq yarışlarda göstəriciləri ildən-ilə yüksəlir. Bu faktı hansı aillərlə izah edərdiniz?***

- Prezident İlham Əliyevin məqsədi Azərbaycanda idmanın kütləviliyini təmin etməkdir. Sevindirici haldır ki, bu istiqamətdə yüksək nəticələr əldə olunub. Əgər idmanda kütləvilik təmin olunmursa, ciddi uğura nail olmaq mümkün deyil. İdmanın kütləviliyi hər bir cəmiyyətdə sağlam nəslin yetişməsində mühüm rol oynayır.

Bu gün bölgələrin əksəriyyətində olimpiya idman kompleksləri və digər idman qurğuları fəaliyyət göstərir. Gənclər bu komplekslərdən səmərəli istifadə edirlər. Biz müharibə şəraitində yaşayan dövlətik, gənc nəsl nə qədər sağlam olsa, torpaqlarımızı daha güclü qoruyacaq. Çox müsbət haldır ki, belə bir nəsl yetişib. Bütövlükdə, görülən işlər nəticəsində ölkəmizdə peşəkar idmançılar və idman mütəxəssisləri yetişir. Bu da kütləviliyin mühüm amillərindən biridir.

Nəzərə alsaq ki, idmanla peşəkar səviyyədə məşğul olan insanların əksəriyyəti gənclərdir, o zaman belə bir qənaətə gələrik ki, idmana qayğı, idmanın kütləviliyi həm də gənclərin inkişaf etdirilməsi sahəsində görülən işdir. Bu baxımdan, ölkəmizdə gənclərin inkişafına həsr olunan dövlət proqramlarında, konsepsiyalarda idmanın inkişafı məsələsi də prioritet olaraq müəyyənləşdirilir. Gənclər arasında maarifləndirici təbliğatın aparılması, onların idmana cəlb olunması bu məsələdə əsas xətt sayılır. Əsas məqsəd gənclərin sağlamlığının qorunması və buna xidmət edən təşviqedici və maarifləndirmə tədbirlərinin keçirilməsidir. Unutmayaq ki, sağlam gənclik həm də sağlam gələcək deməkdir. Ölkə rəhbərliyinin qayğısı ilə həyata keçirilən bu tədbirlər bir daha onu deməyə əsas verir ki, Azərbaycanda idmanın inkişafı gələcək illərdə də yüksək səviyyədə təmin olunacaq.

***- Bəs idmanın inkişafı ilə bağlı mövcud qanunvericilik bazasını necə qiymətləndirirsiniz?***

- Bu gün bütün idman təşkilatları öz fəaliyyətlərini qanunauyğun şəkildə qururlar. Gənclərin idmana, yarışlara cəlb olunması müvafiq federasiyaların vasitəsilə həyata keçirilir. Digər tərəfdən, hər bir istiqamət kimi idmanın inkişafı da ölkə qanunları çərçivəsində tənzimlənir, başqa sözlə, bu sahədə də təkmil qanunvericilik bazası formalaşdırılıb. Bu gün ölkəmizdə idman təkcə yeniyetmə və gənclər arasında deyil, həm də yaşlılar, əlillər, məktəbəqədər, ibtidai məktəb səviyyəsində də inkişaf etdirilir. "Bədən tərbiyəsi və idman haqqında" Qanun ölkəmizdə idmanın həm yüksək səviyyədə inkişafını, həm də bu inkişafın sistematikliyini təmin edir. Qanunda da göstərilir ki, bu istiqamətdə dövlət siyasətinin məqsədi bədən tərbiyəsi və idmanın hüquqi bazasını, həmçinin, yüksək dərəcəli idmançıların hazırlanması üçün bədən tərbiyəsi-idman təşkilatlarını, uşaq idman müəssisələri sistemini yaratmaqdan ibarətdir. Yəni bu sahədə nailiyyət əldə olunması üçün bütün imkanlar yaradılır. O cümlədən, bu gün bütün idman təşkilatları üçün bərabər imkanlar yaradılıb və bütün idman sahələri inkişaf etdirilir.

***- Xəzər müəllim, bir sıra idman mütəxəssisləri hesab edirlər ki, Azərbaycan Yay Olimpiya Oyunlarını da keçirmək iqtidarındadır. Siz necə düşünürsünüz?***

- Yay Olimpiya Oyunları dünyanın əsas idman yarışıdır. Əlbəttə ki, Yay Olimpiya Oyunları Avropa və İslam Həmrəyiliyi oyunlarından fərqlidir və miqyası baxımından daha böyükdür. Çünki burada dünyanın bütün dövlətləri iştirak edir. Eləcə də, bu yarışlarda idman növlərinin sayı da çoxdur. Amma biz bu yarışları da keçirməyə qadirik. Ona görə də, Azərbaycan öz namizədliyini təqdim edir. Ölkəmizin Yay Olimpiya Oyunları kimi planetin bir nömrəli idman yarışına ev sahibliyi etmək iddiasını ortaya qoyması və namizədliyini rəsmi şəkildə irəli sürməsinin arxasında da məhz Azərbaycanın inkişafı, müasir infrastrukturu və təhlükəsiz ölkə olması amili dayanır. Çox sevincli hal olardı ki, Yay Olimpiya Oyunları da Azərbaycanda keçirilsin. Çünki müsəlman ölkələrində Yay Olimpiya Oyunları keçirilməyib. Bu baxımdan, biz ilk müsəlman dövləti ola bilərik.

Təbii ki, bu oyunların keçirilməsində bəzi amillər var və bütün məsələlər Olimpiya Xartiyasına uyğun olmalıdır. Belə bir şəraiti ölkəmizdə yaratmışıq. Əgər Azərbaycana etimad göstərilsə, biz bu şərəfli yükün altından da uğurla çıxa bilərik.

***- Siz həmçinin, MOK-un Ədalətli Oyunlar Komissiyasının sədrisiniz. Necə hesab edirsiniz, idman yarışlarında ədalət prinsipinə tam əməl olunurmu?***

- Azərbaycanda idman yarışları ədalət prinsipi ilə keçirilir. Hər bir idman federasiyasının nizamnaməsi, strukturu, eləcə də hakimlik strukturu var. Hər bir yarışın ədalətli qələbələrlə başa vurulması əsas amillərdən biridir. Böyük fəxarətlə deyə bilərəm ki, Prezident İlham Əliyev Ümumdünya Ədalətli Oyunlar Komissiyası tərəfindən, Birinci vitse-prezident Mehriban xanım Əliyeva isə Avropa Ədalətli Oyunlar Komissiyası tərəfindən yüksək mükafatlara layiq görülüblər. Təbii ki, bu mükafatlar ölkəmizdə idman tədbirlərinin yüksək səviyyədə keçirilməsi və ədalətli şəkildə baş tutmasına görə verilib. Biz bundan qürur duyuruq. Çünki beynəlxalq müstəvidə də Azərbaycanda idmanla bağlı görülən işlərə layiqli qiymət verilir.



## Putin, Tramp, Merkel, ZƏHRAYA görə utandınızmı?

MƏTLƏB
Metlebsalahov@mail.ru

***Serj Sarkisyan yenə göstərdi əsl vəhşiliyini, əsl faşist simasını. Vaxtilə Qarabağda azərbaycanlı dürməyi yeyən, suyumuzdan içən, 1992-ci ilin soyuq fevralında Xocalıda, Hitlerin belə edə bilməyəcəyi şəkildə, azərbaycanlı qadının diri-diri döşünü kəsərək, balasının ağzına tıxayan bu UŞAQ QATİLİ, açıqca qanımıza susamış vampir kimi hərəkət edir. 2 yaşlı ZƏHRANIN qatili olan bu qaniçən şərəfsiz, artıq bizimlə sülh yolu ilə razılığa gələcəyinin mümkün olmadığını ortaya qoydu.***

Bu, artıq bir düşmənin bizə olan amansız simasıdır. Yalandan, daha çox da özümüzün-özümüzə təsəlli verən "nə vaxtsa mehriban qonşu olarıq" kimi fikirləri beynimizin hüceyrələrindən çıxarıb, bir kənara atmağın vaxtı çoxdan çatıb. Yüz illərin acı ibrət dərsləri bəs olmadı bizə ki, ermənilərin heç zaman bizimlə, nəinki mehriban qonşu, heç düzəməlli düşmən belə olmayacağına inanaq?

Bunlar yüz illərdir türklərə qarşı əsl faşist kimi ortaya çıxıblar və yeganə məqsədləri bizi öldürüb, soyqırımı törədib, torpaqlarımızı ələ keçirməkdir. Ay, "biz sülh şəraitində bunlarla mehriban yaşayacağıq" kimi əttökən "propaqandanı" tarixin zibilliyinə atmaq lazımdır. Özü də bunu elə 100 il əvvəl gərək edəydik ki, bu gün bizi "tarixin yuxusuna" verib, bu günlərə qoymayaydılar. İt uşağı Sarkisyan törəmələri bizləri yaxşı tanıyır. Bilir ki, biz ki, yuxuya gedəndə, oyanmağımız çox çətin olur həmişə...

Dünya birliyi, ATƏT, BMT, NATO-bunlar yalan-palan şeylərdir. Bunlar, açıq demək lazımdırsa, ancaq və ancaq xristian təmayüllü dövlətlərin müdafiə təşkilatlarıdır, başqa heç nə! Yuxarıdakıların hamısı maraqlıdır ki, Qafqazda türklərə qarşı amansız, insan qanına susamış erməni dövləti mövcud olsun. Necə ki, indinin özündə də hər yerdə onlar Ermənistanın hamisi kimi hərəkət edirlər. Hətta Rusiya ilə düşmənçilik edən Qərb ölkələri belə, rusların "siyası fahişəsi" rolunda çıxış edən bu oyuncaq ölkənin "day-dayı" kimi çıxış edirlər. Heç bir beynəlxalq təşkilatda insan qanı tökən ermənilər barədə bircə mənfi qərarın qəbuluna icazə verilmir. Nədən? Çünki onlar da avropadakıların dindaşlarıdır!

Bu, olduqca acılı, amma ibrət dərsi çıxarmalı olduğumuz faktdır. Hanı Ermənistana "ata nəvazişi" göstərən Putin, hanı xrisitianların əsl "Məryəm anası" kimi rola girən Merkel, hanı öz biznes maraqlarına görə Yaxın Şərqi bir-birinə vuran Donald Tramp? Qafqazda bir xristianın burnu qanayan kimi, bütün Avropa liderləri "tumanlarını başlarına keçirib" qaçırlar buralara.

2008-ci ildə Rusiya Gürcüstana girən kimi, ABŞ-ın o vaxtkı dövlət katibi Kondoliza Raysdan tutmuş Nikola Sarkoziya qədər hər biri Kremldə V.Putinin əvəzləyicisi olan Dmitri Medvedevin ayaqqabılarına sarılmışdılar.

Elə həmən Rusiya Krıma girib Ukraynanı qanına qəltan edəndə, bu dəfə A.Merkel, Fransua Olland, Polşa və başqa Avropa ölkələrinin rəhbərləri Minskdə V.Putinin ayaqlarına sarılmışdılar. Gözünə döndüyüm Putin də, eləmə tənbəllik, A.Merkelə qəşəng bir söyüş "ərməğan" elə Minskdə. Yəni dediyim odur ki, ölən azərbaycanlı uşağıdır, müsəlman qanıdır. Heç bir Avropa ölkəsi indiyə qədər öldürülən müsəlman uşaqlarına görə, heç diplomatik səviyyədə də olsa, "təəssüf hissi" belə keçirməyib. İnsan hüquqları, demokratiya, filan-beşməkan - hamısı boş və zibil qutusuna atılacaq çeynənmiş terminlərdir. Bizim bircə yolumuz qalıb-içimizdə birlik olub erməniyə heç vaxt unuda bilməyəcəyi ibrət dərsi vermək. Elə dərs ki, nəyin hesabına başa gəlsə də, gələcəkdə hər bir erməninin canına kabus salacaq qədər ağır olsun. Yoxsa yenə zaman-zaman ZƏHRALARIMIZIN qanlı köynəklərinə sarılıb, ağı deməkdən başqa əlimizdən heç nə gəlməyəcək...

# Vüqar Rəhimzadə: "Günahsız körpələrin qətlə yetirilməsi Ermənistanın terrorçu siyasətinin mahiyyətini ortaya qoyur"

"25 il bundan əvvəl olduğu kimi, terrorist, vəhşi, quldur, qaniçən Ermənistan hakimiyyətinin işğalçılıq siyasəti bu gün də davam edir, dinc əhali hədəf seçilir. 1992-ci ildə Xocalı soyqırımını törədən vəhşi ermənilər bu gün də körpə, günahsız zəhraları qətlə yetirməklə öz şərəfsiz əməllərini davam etdirirlər. Azərbaycan Ordusu öz ərazi bütövlüyünün bərpası uğrunda ədalətli mübarizə apardığı, düşmən təxribatlarının qarşısını aldığı halda, bəşər cəmiyyəti üçün hər zaman təhlükə olan, insani xüsusiyyətlərdən uzaq olan vandal ermənilər isə yalnız dinc əhaliyə güllə atmaqla öz şərəfsiz və çirkin əməllərini bir daha ortaya qoyurlar. Təbii ki, quldur və terrorçu ermənilərin bu əməlləri cavabsız qalmayacaq, qətiyyətlə qeyd etmək istəyirəm ki, güclü Azərbaycan ordusu və güclü Azərbcaycan əsgəri adekvat addımlar atacaq, 2016-cı ilin aprel ayında olduğu kimi yenidən düşmənə öz yerini göstərəcək. Bu cinayətkar əməlləri törədən ermənilər gec-tez ədalət məhkəməsi qarşısında cavab verəcəklər. Şübhəm yoxdur ki, onlara havadarlıq edən qüvvələrin və bəzi beynəlxalq təşkilatların ikili yanaşmasına baxmayaraq, bu əməllərin sahibləri cəzasız qalmayacaq." Bu fikirləri YAP Siyasi Şurasının üzvü, "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə iyulun 4-də Ermənistan silahlı qüvvələrinin Füzuli rayonunun Alxanlı kəndi-



nin mülki əhalisini və mülki obyektlərini hədəflənmiş şəkildə və qəsdən 80 və 102 millimetrlik minaatanlardan və dəzgahlı qumbaraatanlardan atəşə tutması nəticəsində 1967-ci il təvəllüdlü Sahibə Quliyevanın və onun 2 yaşlı nəvəsi Zəhra Quliyevanın həlak olmasına münasibət bildirərkən söyləyib. Onun sözlərinə görə, mənfur Ermənistan silahlı birləşmələrinin dinc əhalimizə və mülki obyektlərimizə hücumları, insan haqlarının, 1949-cu il Cenevrə konvensiyalarının, eyni zamanda fundamental azadlıqlara dair Konvensiyanın ciddi və kobud şəkildə pozulmasıdır. V.Rəhimzadə qeyd edib ki, düşmənin bu cür təxribat xarakterli əməlləri cəbhə bölgəsində yaşayan soydaşlarımızda qorxu və ya panika yaratmaq məqsədi daşıyır: "Ancaq azğın düşmən unudur ki, Azərbaycan xalqı, Azərbaycan Ordusu güclüdür, mübarizdir, heç nədən qorxmur. Xüsusilə cəbhə bölgəsində yaşayan soydaşlarımız daim azğın düşmənlə üzüzə dayansalar da qorxmaz, mərd şəkildə öz həyatlarını davam etdirir, torpaqlarımızın düşmən tapdağından azad olunacağı günü səbirsizliklə gözləyirlər. Şübhəsiz ki, o gün uzaqda deyil."

YAP Siyasi Şurasının üzvü bildirib ki, bəzi beynəlxalq təşkilatlar, xüsusilə münaqişənin həllində vasitəçilik missiyasını öz üzərinə götürən ATƏT-in Minsk Qrupunun həmsədrləri bu məsələdə qətiyyətli mövqe ortaya qoymalı, işğalçı Ermənistana təzyiqlər göstərilməlidir: "Təəssüf ki, artıq 25 ildir biz bunun şahidi olmuruq. Zaman-zaman regiona səfər edən və protokol xətrinə bəyanatlar yayan həmsədrlər qəti şəkildə mövqe ortaya qoymurlar. Onlar işğalçı ilə işğala məruz qalana eyni münasibət sərgiləyirlər. Bu isə Azərbaycan ictimaiyyətində böyük təəssüf hissi doğurur və Minsk Qrupunun fəaliyyətinə böyük şübhələr yaradır. Günahsız körpələrin qətlə yetirilməsi vandal Ermənistanın terrorçu mahiyyətini bir daha ortaya qoyur. Beynəlxalq təşkilatlar, xüsusilə də ATƏT-in Minsk Qrupu bunu dilə gətirməli, ikili standartları bir kənara qoyub ədalətli mövqe nümayiş etdirməli, Ermənistanı işğal altında saxladığı Azərbaycan torpaqlarını azad etməyə, soyqırımı siyasətini dayandırmağa məcbur etməlidir."

# Dövlət Komitəsi: "Daha nə qədər azərbaycanlı uşaq qətlə yetirilməlidir ki, dünya ictimaiyyəti bu münaqişənin həllinə diqqət yetirsin"

Ermənistan silahlı qüvvələrinin növbəti təxribatı nəticəsində Quliyeva Sahibə İdris qızı və onun 2 yaşlı nəvəsi Quliyeva Zəhra Elnur qızının öldürülməsi, digər mülki şəxsin yaralanması və mülki obyektlərə ziyan vurulması vandalizm aktı olaraq Ermənistan dövlətinin terrorçu mahiyyətini bir daha sübut edir. Biz heç bir uşağın istər azərbaycanlı olsun, istərsə də digər millətin nümayəndəsi olsun - müharibədən əziyyət çəkməsinə qarşıyıq. Lakin təəssüflər olsun ki, erməni xisləti öz mənfurluğundan əl çəkmir. 1994-cü ildə atəşkəs rejiminin elan olunmasına baxmayaraq, ermənilərin Azərbaycanda uşaqları qətlə yetirilməsi faktları qeydə alınmaqda davam edir. Ötən dövrdə 32 uşaq erməni terrorunun qurbanı olub. Onlardan on üçü həlak olub, on doqquzu isə yaralanıb. Çox təəssüflər olsun ki, bu gün həmin uşaqların sırasına 2 yaşlı Quliyeva Zəhra əlavə olundu.

AZƏRTAC xəbər verir ki, bu fikirlər Ermənistanın növbəti təxribatı ilə bağlı Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin yaydığı açıqlamada yer alıb.

Açıqlamada deyilir: Biz hüquqi dövlət qurmuşuq. Bütün məsələlərin də hüquq çərçivəsində həll olunmasının tərəfdarıyıq. Ermənistan da BMT-nin



Uşaq Hüquqları haqqında Konvensiyanı ratifikasiya edib. Lakin buna baxmayaraq, uşaqlara qarşı zorakılıq əməlləri törətməkdən çəkinmir. İstər müharibə, istərsə də atəşkəs zamanı öz çirkin niyyətlərini həyata keçirirlər. Ermənistanın Azərbaycan mülki əhalisinə və mülki obyektlərə birbaşa və qəsdən hücumları, beynəlxalq humanitar hüququn və insan haqlarının, xüsusilə 1949-cu il Cenevrə konvensiyaları və ona 1 saylı Əlavə, həmçinin Uşaqların hüquqlarına və İnsan hüquqlarının müdafiəsi və fundamental azadlıqlara dair Konvensiyanın ciddi şəkildə pozulmasıdır. Buna dünya ictimaiyyəti və BMT-nin üzv dövlətləri tərəfindən layiqli qiymət verilməlidir.

Bu gün hər bir vətəndaş, o cümlədən, Azərbaycan qadınları da ölkə başçısının ədalətli mövqeyini dəstəkləyir. Bu, dövlətlə xalqın, ordunun birlik və bərabərliyinin təcəssümüdür. Xalqımız bu münaqişənin beynəlxalq çərçivədə sülh yolu ilə həll olunmasının tərəfdarıdır və eyni zamanda, dinc əhaliyə qarşı törədilən cinayətə son qoyulmasını tələb edir.

Biz, beynəlxalq hüquqi normalara riayət edilməsi, beynəlxalq sülhün və təhlükəsizliyin müdafiə edilməsi, Birləşmiş Millətlər Təşkilatının qətnamələrinə, Avropa Şurasının, ATƏT-in, digər beynəlxalq təşkilatlarının qəbul etdikləri sənədlərə əməl olunması və Ermənistanın işğalçı siyasətinin dayandırılması üçün beynəlxalq təşkilatlara və dünya ölkələrinə müraciət edirik.

Biz bir daha Ermənistan silahlı qüvvələrinin təxribatı nəticəsində həlak olan Füzuli rayonunun Alxanlı kənd sakinləri 50 yaşlı Quliyeva Sahibə və 2 yaşlı Quliyeva Zəhranın ailələrinə və yaxınlarına dərin hüznlə başsağlığı verir və yaralanan Quliyeva Sərvinazın tezliklə şəfa tapmasını diləyirik. Daha nə qədər uşaq və dinc əhali amansızcasına qətlə yetirilməlidir ki, dünya ictimaiyyəti bu hərbi münaqişənin ədalətli həllinə diqqət yetirsin.

# Erməni bölmələrinin atəşi nəticəsində həlak olan Alxanlı kənd sakinləri dəfn edilib





Ermənistan silahlı qüvvələrinin Azərbaycanın Füzuli rayonunun Alxanlı kəndini minaatanlardan və dəzgahlı qumbaraatanlardan atəşə tutması nəticəsində həlak olan mülki şəxslər - 1967-ci il təvəllüdlü Quliyeva Sahibə və onun nəvəsi 2 yaşlı Quliyeva Zəhra kənd qəbiristanlığında dəfn edilib. AZƏRTAC xəbər verir ki, dəfn mərasiminə rayon ictimaiyyətinin nümayəndələri, kənd sakinləri qatılıblar. Ermənilərin bu qanlı cinayətlərindən hiddətlənən kənd sakinləri beynəlxalq təşkilatlardan haqq-ədalətin təmin olunmasını tələb ediblər. Onlar həmkəndlilərinin qanının yerdə qalmayacağına, düşməndən qisas alınacağına əminliklərini bildiriblər.

Mərasimdə çıxış edən Füzuli Rayon İcra Hakimiyyətinin başçısı Alı Alıyev mərhumların yaxınlarına dərin hüznlə başsağlığı verib, Allahdan səbir diləyib. Bildirib ki, Ermənistan silahlı qüvvələrinin iyulun 4-də Azərbaycanın mülki əhalisini və yaşayış məntəqələrini artilleriya qurğuları, minaatanlar və digər iriçaplı silahlardan intensiv atəşə tutması nəticəsində yaşlı qadının və onun 2 yaşlı nəvəsinin öldürülməsi, digər sakinlərin yaralanması, mülki əhalinin məskunlaşdığı yaşayış məntəqələrinin dağıdılması və zərər vurulması müvafiq beynəlxalq konvensiyalara zidd olmaqla yanaşı, terrorçu Ermənistan rejiminin qaniçən mahiyyətini, şəxsən prezident Serj Sarkisyanın Azərbaycan xalqına qarşı düşmənçilik münasibətini əyani şəkildə nümayiş etdirdi. Cəbhə xətti boyunca Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycan əhalisinin sıx yaşadığı ərazilərin hədəfə alınması sübut edir ki, mütəmadi olaraq törədilən bu kimi qanlı təxribatların məqsədi dinc sakinləri öldürmək, yerli əhali arasında psixoloji gərginlik yaratmaqdır. Ancaq düşmən məqsədinə nail olmayacaq. Cəbhə kəndlərinin sakinləri ordumuza, dövlətimizin başçısına güvənir və düşmən üzərində tezliklə qələbə qazanılacağına əmindirlər. Həlak olanların qohumu Mətləb Quliyev bildirib ki, düşmənin məqsədi ordunun arxasında duran kənd sakinlərini ruhdan salmaqdır. Lakin bu baş verməyəcək: “Biz düşmənin təxribatlarına baxmayaraq, şəhidlər versək də, doğma kəndimizi tərk etməyəcəyik. Ordumuz torpaqlarımızın keşiyində, xalqımız isə ordumuzun arxasında mətanətlə dayanıb. Hamımızın bir amalı var - işğalçıları torpaqlarımızdan qovub çıxarmaq”.





Düşmənin atəşi nəticəsində anasını və 2 yaşlı övladını itirən Elnur Quliyev kədərini AZƏRTAC-ın müxbiri ilə bölüşüb: “Çox ağırdır. Bu gün anamı və körpə balamı torpağa tapşırdıq. Ürəyim yanır. Ancaq düşmən bilsin ki, onların da ürəkləri yanacaq. Şəhidlərimizin qisasının alınması üçün Ali Baş Komandanın əmri ilə hər an silaha sarılmağa hazıram”.

Alxanlı kənd sakini Naib Əliyev isə deyib: “Ermənistan silahlı birləşmələrinin bu vəhşiliyi bizim düşmənə olan nifrətimizi, qəzəbimizi daha da artırır. Düşmən bilsin ki, bu qan yerdə qalmayacaq. Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə tezliklə şəhidlərimizin qisası alınacaq, işğal altında olan bütün torpaqlarımız azad olunacaq”.

# Ermənistan öz vəhşiliyini davam etdirir

## *Sarkisyan uşaq qatili olduğunu növbəti qətliamı ilə bir daha nümayiş etdirdi*

***Alı Alıyev: "Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın tapşırıq və tövsiyələri əsasında düşmən təxribatı nəticəsində həlak olan şəxslərin dəfn xərcləri və yaralananın müalicə xərcləri rayon icra hakimiyyəti tərəfindən ödəniləcək"***

Məlum olduğu kimi, iyulun 4-də axşam saatlarında Ermənistan silahlı qüvvələri Füzuli rayonunun Alxanlı kəndini minaatanlardan və ağır artilleriya qurğularından atəşə tutub. Ermənistan silahlı qüvvələrinin mülki əhalini hədəf alan hərəkətləri nəticəsində kənd sakini 1967-ci il təvəllüdlü Quliyeva Sahibə İdris qızı və onun nəvəsi 2 yaşlı Quliyeva Zəhra Elnur qızı həlak olmuş, digər mülki şəxs 1965-ci il təvəllüdlü Quliyeva Sərvinaz İltifat qızı isə yaralanmış, mülki obyektlərə zərər yetirilmişdir. Füzuli rayon icra hakimiyyətinin başçısı Alı Alıyev dərhal Alxanlı kəndində hadisə yerində olub. Rayon icra hakimiyyətinin başçısı Alı Alıyev Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın tapşırıq və tövsiyələri əsasında düşmən təxribatı nəticəsində həlak olan şəxslərin dəfn və yaralananın müalicə xərclərinin rayon icra hakimiyyəti tərəfindən ödəniləcəyini bildirib. Söhbət etdiyimiz müsahiblərimiz şəhidlərimizin qanının yerdə qalmayacağını, düşmənin ən sarsıdıcı zərbələrlə məhv ediləcəyini bildirdilər.



### Millət vəkili Tahir Mirkişili: "2 yaşlı qızımızın ürək parçalayan şəklini görüncə, düşmənə ən yaxşı cavabı ordumuzun verəcəyinə inanıram"

- Beynəlxalq aləm tərəfindən cəzasız qalan Ermənistan öz vəhşiliyini davam etdirir. ATƏT Parlament Assambleyasının Minskdə keçirilən illik sessiyasında bu hadisə bir daha hər kəsin diqqətinə çatdırılacaq, Ermənistana sanksiyaların tətbiqi bir daha gündəliyə gətiriləcək. Bütün bununla yanaşı, 2 yaşlı qızımızın ürək parçalayan şəklini görüncə, düşmənə ən yaxşı cavabın ordumuzun verəcəyinə inanıram.

İstənilən halda düşmən cavabsız qalmayacaq. Həm hərbi, həm də diplomatik səviyyədə lazımi cavab verilir və veriləcək. Hadisələrin səbəbi işğal faktı və Ermənistanın cəzasız qalmasıdır ki, bunların hər ikisinə də tezliklə son qoyulmalıdır.

### Politoloq Arzu Nağıyev: "Onların budəfəki təxribatı bir növ vəhşilikdir"

- Düşünürəm ki, erməni silahlı qüvvələrinin təxribatı gözlənilən idi. Çünki ATƏT-in Minsk Qrupunun həmsədrlərinin, məhz Vyanada açıqlamaları gözlənilirdi və Azərbaycan və Ermənistan xarici işlər nazirləri Elmar Məmmədyarov və Edvard Nalbandyanın iyulun 11-də Avstriyanın Mauerbax şəhərində görüşü planlaşdırılırdı. Bu ərəfədə ermənilər daim təxribata əl atır və bu cür hadisələr törədirlər. Onların budəfəki təxrtibatı bir növ vəhşilikdir. İşğalçı dövlətin mülki vətəndaşlara qarşı atdığı addım artıq heç bir çərçivəyə sığmır. İkinci məqam, ermənilərin bəhanələri guya odur ki, Azərbaycan tərəfi atəşkəsi pozub və bu, onların cavab atəşidir. Axı necə ola bilər ki, raketlərin və atılan mərmilərin markasına qədər bunlar büruzə vermək istəyir?! Üçüncü məqam isə ötən gün Cocuq Mərcanlı kəndinə böyük qayıdışın anonsunun verilməsiydi. Erməni tərəfi də guya öz vətəndaşlarını sakitləşdirmək və ictimai rəy yaratmaq üçün bu cür böyük qayıdışların qarşısını almağa çalışır. Ümumiyyətlə, Ermənistandan köç başlayıb, amma işğaldan azad olunmuş ərazilərinə Azərbaycan tərəfinin qayıdışı başlayıb.

ATƏT-in Minsk Qrupunun həmsədri olan ölkələr - ABŞ, Rusiya və Fransa ermənilərə təzyiq və təsirlərini artırmalıdırlar. Yəni ATƏT-in Minsk Qrupunun həmsədrləri sadə deklorativ bəyanatlardan başqa belə bir təxribat məsələlərini də yerində araşdırmalıdır və öz bəyanatlarını səsləndirməlidirlər.

### İnsan Hüquqları və Maarifçilik İctimai Birliyinin sədri Niyaməddin Orduxanlı: "Azərbaycan Ordusu körpələrimizin qanını yerdə qoymamalıdır!"

- Artıq neçənci dəfədir ki, erməni vəhşiləri günahsız körpələrimizi qətlə yetirirlər. Buna dözmək olmur. Azərbaycan Ordusu körpələrimizin qanını yerdə qoymamalıdır! Konkret Azərbaycan Ordusu da erməni mülki vətəndaşlarına atəş açmalıdır! Onları başqa yolla susdurmaq olmayacaq! Bir məsələyə də diqqətinizi çəkməz istəyirəm: ATƏT-in Minsk Qrupunun ikili standartına. Hadisənin üstündən xeyli vaxt keçib. Hər iki tərəfin rəsmiləri 2 yaşlı körpənin qətlə yetirilməsini təsdiq ediblər. Niyə indiyə qədər Minsk Qrupu susur?! Ümumiyyətlə, bu qrup nəyə lazımdır?! İndi təsəvvür edin ki, Azərbaycan Ordusunun açdığı atəş nəticəsində 2 yaşlı erməni qızı qətlə yetirilmiş olardı, 10 dəqiqə keçməmiş bəyanatların ardı-arası kəsilməzdi. Bir daha, qeyd etmək istəyirəm ki, xalqımız bu quruma qətiyyən inanmır və haqlı olaraq, onların mənasız fəaliyyətlə məşğul olduqlarını düşünürlər. Digər tərəfdən, beynəlxalq təşkilatların da səsi gəlmir. Hələ də susurlar. Bu da, onu deməyə əsas verir ki, Azərbaycana qarşı ikili standartlar mövcuddur və bu təşkilatlar üçün əsas insan faktoru deyil.

Heç bir halda, beynəlxalq normalara uyğun davranmırlar. Düşünürəm ki, Azərbaycan xalqı ATƏT-in Minsk Qrupunu bundan sonra Azərbaycana buraxmamalıdır. Nəyə gəlirlər ki?! Onların səfərlərini cəmiyyət turist səfəri kimi qiymətləndirir. Gəlib isitrahət edib, gedirlər və mənasız yerə uzun illərdir ki, danışıqlar aparırlar.

### "Kaspi" qəzetinin baş redaktoru İlham Quliyev: "Erməni silahlı qüvvələrinin 2 yaşlı körpəni və onun nənəsini qətlə yetirmələri dəhşətli bir faktdır"

- Füzulinin Alxanlı kəndində erməni silahlı qüvvələrinin 2 yaşlı körpəni və onun nənəsini qətlə yetirmələri dəhşətli bir faktdır. Bu addım Ermənistan tərəfinin əsl simasını üzə çıxarır, onların terrorçu mahiyyətini ortaya qoyur. Özü də, bu, ermənilərin cəbhə bölgəsində uşaqlara qarşı ilk qətliamı deyil. Bundan əvvəl də ermənilər dinc sakinlərə, uşaqlara, qocalara qarşı bu cür iyrənc hərəkətlər törədiblər. Təbii ki, bütün bunlar həm də düşmənin panikada olduğunun göstəricisidir. Şübhə etmirəm ki, Azərbaycan Ordusu bu təxribatın layiqli cavabını verəcək. Amma tez-tez münaqişənin həllinin ancaq sülh danışıqlarında olduğunu deyən, tərəfləri sülhə çağıran dünya ictimaiyyəti, beynəlxalq təşkilatlar gözlərini açıb əsl həqiqəti, erməni mahiyyətini görməlidirlər. Ermənilərin bu vəhşiliyi, fürsətkeşliyi qəti şəkildə pislənilməli, onlardan hesab sorulmalıdır.

***GÜLYANƏ***

# NATO PA-nın 95-ci Rouz-Rout seminarının iştirakçılarına Ermənistanın növbəti hərbi təxribatı barədə məlumat verilib



Xəbər verdiyimiz kimi, iyulun 3-də Kiyevdə NATO Parlament Assambleyasının 95-ci Rouz-Rout seminarı işinə başlayıb. Milli Məclisin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ukrayna Ali Radası ilə birgə keçirilən "Təhlükəsiz, sabit Ukraynaya doğru və Qara Dəniz regionu" adlı bu tədbirdə iştirak edən Milli Məclisin deputatları Məlahət İbrahimqızı və Kamran Bayramov gündəlikdəki məsələlər ətrafında çıxışlar edərək, Qara Dəniz regionunda Azərbaycanın oynadığı vacib roldan söz açmış və auditoriyanın diqqətini regionun təhlükəsizliyinə ölkəmizin verdiyi sanballı töhfələrə çəkmiş, Ermənistanın Azərbaycana qarşı yürütdüyü işğalçılıq siyasətinin mahiyyətini bir daha tədbirdə səsləndiriblər. İyulun 3-də Ukrayna Ali Radasında NATO-Ukrayna Xartiyasının 20 illiyi qeyd edilib.

Seminarda Azərbaycan parlament nümayəndə heyəti bəyanatla çıxış edərək iyulun 4-də Ermənistan silahlı qüvvələrinin Azərbaycanın Füzuli rayonunun Alxanlı kəndini atəşə tutması nəticəsində Quliyeva Sahibə və onun 2 yaşlı nəvəsi Quliyeva Zəhranın vəhşicəsinə qətlə yetirilməsi barədə dəhşətli xəbəri Alyansa üzv olan ölkələrin, o cümlədən tərəfdaş dövlətlərin nümayəndə heyətlərinin diqqətinə çatdırıb. Çıxışında Məlahət İbrahimqızı qeyd edib ki, Ermənistan silahlı qüvvələri tərəfindən yaşlı qadının və onun 2 yaşlı nəvəsinin öldürülməsi, digər mülki şəxsin yaralanması və mülki obyektlərə ziyan vurulması Ermənistan dövlətinin növbəti təxribatıdır. O bildirib ki, Cənubi Qafqazda təhlükəsizliyin təmin edilməsi bütövlükdə Qara dəniz regionunun sabitlik və təhlükəsizlik arxitekturasına böyük töhfə olar.

Deputat qeyd edib ki, mülki əhaliyə və mülki obyektlərə birbaşa və qəsdən hücumlar, dinc əhalinin, o cümlədən qocaların və uşaqların öldürülməsi insanlıq əleyhinə törədilmiş dəhşətli cinayətdir və beynəlxalq humanitar hüququn, insan haqlarının, xüsusilə 1949-cu il Cenevrə Konvensiyasının və ona 1 saylı Əlavənin, həmçinin uşaqların hüquqlarına və insan hüquqlarının müdafiəsi və fundamental azadlıqlara dair Konvensiyanın ciddi şəkildə pozulmasıdır. Hazırda Dağlıq Qarabağ münaqişəsinin həlli ilə ATƏT-in Minsk qrupunun həmsədrlərinin məşğul olduğunu deyən deputat münaqişənin sülh yolu ilə həllinə dair Ermənistan tərəfinin üzərinə götürdüyü öhdəlikləri kobud şəkildə pozmasını xüsusilə vurğuladı və bir daha qeyd etdi ki, sülh danışıqlarını pozmaq üçün Ermənistan tərəfi mülki şəxslərin və uşaqların qəsdən öldürülməsinə yönəlmiş alçaq və şərəfsiz təxribatlara əl atır. Lakin Azərbaycan hökuməti və xalqı münaqişənin sülh yolu ilə həllini istəyir. Azərbaycan Respublikası dəfələrlə bəyan edib ki, Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazilərini işğal etməsi regionda gərginliyin və insidentlərin yaranmasının əsas səbəbidir.

# "Ümummilli Lider Heydər Əliyevin Azərbaycanda birinci dəfə hakimiyyətə gəlməsinin 48-ci ildönümü"

## YAP Şəmkir rayon təşkilatının təşkilatçılığı ilə tədbir keçirilib

*Dünən YAP Şəmkir rayon təşkilatının təşkilatçılığı ilə "Ümummilli Lider Heydər Əliyevin Azərbaycanda birinci dəfə hakimiyyətə gəlməsinin 48-ci ildönümü" münasibətilə N.Gəncəvi adına məhəlli ilk partiya təşkilatında tədbir keçirildi. Tədbiri giriş sözü ilə açan Şəmkir rayon icra hakimiyyəti başçısının müavini, YAP Şəmkir rayon təşkilatının sədri Fəxrəddin Vəliyev qeyd etdi ki, 48 il bundan əvvəl, 1969-cu ilin iyulunda Sovet Azərbaycanının tarixində gələcək müstəqil Azərbaycanın tarixinə hesablanmış böyük və misilsiz bir hadisə baş verdi.*

Bütün ömrünü Azərbaycan adlı bir məmləkətin varlığına bağlamış, taleyi Azərbaycan adı ilə qoşa yazılmış xalqımızın xilaskar oğlu, dünyanın ən böyük siyasətçilərindən biri olan Ulu Öndər Heydər Əliyev ilk dəfə Azərbaycana rəhbərlik etməyə başladı: "1969-cı ildə Ulu Öndər Heydər Əliyevin Azərbaycanda siyasi hakimiyyətə gəldiyi dövrdə həm SSRİ məkanında, həm Azərbaycanda sosial, iqtisadi, siyasi, mədəni və ictimai həyata nəzər salsaq, Azərbaycanın o dövrdə bir respublika kimi, SSRİ-nin müttəfiq bir respublikası kimi iqtisadi baxımdan, ittifaq miqyasında digər respublikalardan geri qaldığını görərdik. İstər kənd təsərrüfatının istehsalı, istər sənaye məhsulu istehsalı baxımından müqayisəli şəkildə baxdıqda, Azərbaycanın inkişaf etmədiyini görürük. Azərbaycanın iqtisadi baxımdan inkişafdan geridə qalması müşahidə olunurdu. Ulu Öndər Heydər Əliyevin hakimiyyətə gəlişi ilə, Azərbaycan qısa zaman kəsiyində, İttifaq miqyasında iqtisadi baxımdan özünü təmin etməyə qadir olan respublikalar sırasına daxil oldu. SSRİ-nin dağılması ərəfəsində bir neçə müttəfiq respublika iqtisadi baxımdan özünü təmin edə bilərdi. Bunlardan biri Rusiya Federasiyası, ikincisi Ukrayna, digəri isə Azərbaycan idi. Qalan respublikalar İttifaq büdcəsi hesabına yaşayırdılar, İttifaq büdcəsindən əlavə vəsaitlər alırdılar, halbuki Azərbaycan özü-özünü maliyyələşdirmək imkanına malik idi. Bütün bunlar - Ulu Öndər Heydər Əliyevin hakimiyyətinin birinci dövründə yaradılmış iqtisadi potensial sonrakı mərhələlərdə, müstəqillik illərində Azərbaycan üçün çox əhəmiyyətli bir rol oynadı. Ulu Öndər Heydər Əliyev Azərbaycanda siyasi hakimiyyətdə olduğu birinci dövrdə gələcək müstəqil Azərbaycanın iqtisadi, sosial, mənəvi və psixoloji bazasını yaratdı".





Daha sonra çıxış edən natiqlər Nizami Gəncəvi adına məhəlli ilk partiya təşkilatının sədri İlhamə Səfərova və partiya fəalı Elşən Ələsgərov qeyd etdilər ki, Ümummilli Lider Heydər Əliyev Azərbaycan dövlətçiliyinin fundamental prinsipini yaradıbdır. Hər bir dövlət müəyyən ideoloji-siyasi prinsiplərə söykənir: "Varislik prinsipi Azərbaycan siyasətində çox əhəmiyyətli yer tutur və Cənab Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Azərbaycan dövlətinin söykəndiyi siyasi varislik prinsipi, dövlət idarə modeli və iqtisadi model. Eyni zamanda, əldə etdiyimiz uğurların növbəti mərhələdə daha da inkişaf etdirilməsi ilə ölkəmizin irəliyə aparılmasına xidmət edir. Varislik ictimai, iqtisadi, siyasi, sosial və ideoloji baxımdan ölkənin inkişaf etdirilməsi deməkdir. Ulu Öndər Heydər Əliyevin siyasi varisi Cənab Prezident İlham Əliyev ölkəmizin sürətli inkişafı üçün çox ciddi addımlar atır. Cənab Prezident Azərbaycanın iqtisadi inkişaf modelini daha yüksək səviyyəyə qaldırmışdır. Bu gün dünyanı bürüyən qlobal iqtisadi böhran şəraitində Azərbaycanın əldə etdiyi uğur və inkişaf göz önündədir. Azərbaycanın inkişafının əsasında dayanan fundamental prinsiplər sırasında varisliyin daha yüksək səviyyədə qorunduğunu və inkişaf etdiyini Prezident İlham Əliyevin həyata keçirdiyi daxili və xarici siyasətdə qabarıq şəkildə görürük.

Bu gün Ulu Öndər Heydər Əliyev siyasəti Cənab Prezidentimiz İlham Əliyev tərəfindən uğurla davam etdirilir və Qurtuluşdan böyük qələbəyə doğru getməkdəyik".

**NƏZAKƏT**

## AVCİYA Ermənistanın dinc Azərbaycan əhalisinə qarşı törətdiyi növbəti ağır cinayəti lənətləyir

Azərbaycanda Vətəndaş Cəmiyyətinin İnkişafına Yardım Assosiasiyası Ermənistan silahlı qüvvələrinin Füzuli rayonunun Alxanlı kəndində törətdiyi ağır cinayətlə bağlı bəyanat yayıb.

Bu barədə AZƏRTAC-a AVCİYA-dan məlumat veriblər. Bəyanatda deyilir: "Ermənistanın hərbi-siyasi rəhbərliyi növbəti cinayətə imza atdı. İyulun 4-də, axşam saatlarında işğal altında olan ərazilərimizdəki Ermənistan silahlı qüvvələri Füzuli rayonunun Alxanlı kəndinin mülki əhalisini və mülki obyektləri mina və qumbaraatanlardan atəşə tutub.

Bu vəhşi əməl nəticəsində Alxanlı kənd sakinləri 1967-ci il təvəllüdlü Quliyeva Sahibə və onun nəvəsi 2 yaşlı Quliyeva Zəhra həlak olublar. Digər mülki şəxs 1965-ci il təvəllüdlü Quliyeva Sərvinaz yaralanıb və mülki obyektlərə zərər yetirilib.

Azərbaycanda Vətəndaş Cəmiyyətinin İnkişafına Yardım Assosiasiyası olaraq Ermənistan dövlətinin dinc Azərbaycan vətəndaşlarına qarşı törətdiyi növbəti ağır cinayəti qətiyyətlə lənətləyir. Dünya ictimaiyyəti diqqətini bu dəhşətli hadisəyə yönəltməlidir. ATƏT-in Minsk qrupunu və beynəlxalq təşkilatları Ermənistan dövlətinin işğalçı siyasətinə son qoymaq üçün qətiyyətli addımlar atmağa çağırırıq".

# Azərbaycan Mətbuat Şurası dünyanın media ictimaiyyətinə ünvanlanmış bəyanat yayıb

***Azərbaycan Mətbuat Şurası iyulun 4-də Ermənistan silahlı qüvvələrinin Füzuli rayonunun Alxanlı kəndini atəşə tutması nəticəsində mülki şəxslərin - Quliyeva Sahibə İdris qızının, onun nəvəsi 2 yaşlı Quliyeva Zəhra Elnur qızının həlak olması, Quliyeva Sərvinaz İltifat qızının isə yaralanması faktı ilə bağlı bəyanat yayıb.***

AZƏRTAC xəbər verir ki, dünyanın media ictimaiyyətinə ünvanlanmış bəyanatda deyilir: "Azərbaycan və Ermənistan arasında atəşkəs müqaviləsinin imzalandığı 1994-cü ildən bu günədək erməni tərəfi bu razılaşmanı daim pozub, üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməyib. Azərbaycan-Ermənistan qoşunlarının təmas xəttindəki gərginlik halları, atəşkəsin pozulması faktları zaman-zaman dünyanın media ictimaiyyətinin də diqqət mərkəzində olub.

Ermənistan silahlı qüvvələrinin hücumları nəticəsində azərbaycanlı mülki şəxslər qətlə yetirilib, xəsarətlər alıb, onların əmlakları dağıdılıb, bir sözlə insan faciələri yaşanıb. Belə faciələrdən biri iyulun 4-də erməni hərbi birləşmələrinin Füzuli rayonunun Alxanlı kəndini atəşə tutması nəticəsində bir daha yaşandı. Quliyeva Sahibə İdris qızı, onun nəvəsi 2 yaşlı Quliyeva Zəhra Elnur qızı həlak oldular, daha bir mülki vətəndaş Quliyeva Sərvinaz İltifat qızı yaralandı.

Göründüyü kimi, Ermənistan öz terrorçu mövqeyinin nümayişindən çəkinmir, günahsız insanların, əlelxüsus uşaqların qanını tökməkdə davam edir. Sıralarında Azərbaycanın aparıcı kütləvi informasiya vasitələrini, jurnalist təşkilatlarını birləşdirən Mətbuat Şurası bu vandalizm aktını qətiyyətlə pisləyir, dünyanın media ictimaiyyətini Ermənistanın işğalçı və terrorçu mahiyyətini bir daha sübut etməyə çağırır.

Ermənistanın əhaliyə və mülki obyektlərə birbaşa və qəsdən hücumları beynəlxalq humanitar hüquqa, insan haqlarına və fundamental azadlıqlara açıq həqarətdir, Dağlıq Qarabağ münaqişəsi üzrə sülh prosesinə zərbədir. Azyaşlı uşağın partlayıcı qurğu ilə qətlə yetirilməsinə birbaşa terror əməlidir. Mətbuat Şurası üzv olduğu Dünya Mətbuat Şuraları Assosiasiyasını, Avropa Mətbuat Şuraları Alyansını, digər beynəlxalq təşkilatları, o cümlədən jurnalistika sahəsində ixtisaslaşmış bütün xarici qurumları Ermənistanın minlərlə məsum azərbaycanlı uşağın qətlinə səbəb olmuş işğalçılıq siyasətinə biganə qalmamağa səsləyir. Şura hesab edir ki, dünyanın media ictimaiyyətinin hadisə ilə bağlı yüksək həssaslığı yeni insan faciələrinin yaşanmasının qarşısını ala bilər. Mətbuat Şurası, həmçinin yerli kütləvi informasiya vasitələrinə də üz tutaraq bu vandalizm aktını geniş, peşəkarlıqla işıqlandırmağa, onun miqyasını özlərinin beynəlxalq tərəfdaşları ilə bölüşməyə, mövcud istiqamətdə daha fəal mövqe tutmağa çağırır".

# Sədaqət Vəliyeva: "Ermənistan mülki insanları qətlə yetirməklə bir daha terrorçu mahiyyətini isbatlayır"



"Ermənistanın kriminal rəhbərliyi hər zaman danışıqlar prosesini pozmaq üçün təxribatlara əl atıb. Daim çalışıb ki, müxtəlif vasitələrdən istifadə edərək, cəbhədə vəziyyəti gərginləşdirsin. 2016-cı ilin aprel ayında da Ermənistan eyni addımı atdı və layiqli cavabını aldı. Bu dəfə Füzuli rayonunun Alxanlı kəndində baş verən ölüm hadisəsi də Ermənistanın qanlı əməllərinin nəticəsidir. Məhz Ermənistan silahlı qüvvələrinin bu təxribatı nəticəsində, yaşlı qadın və onun 2 yaşlı nəvəsinin öldürülməsi, digər mülki şəxsin yaralanması və mülki obyektlərə ziyan vurulması vandalizm aktı olaraq Ermənistan dövlətinin terrorçu mahiyyətini bir daha isbatlayır".

Bunu "SƏS" qəzetinə açıqlamasında Yeni Azərbaycan Partiyası Nizami rayon təşkilatının sədri, Milli Məclisin deputatı Sədaqət Vəliyeva bildirib.

S.Vəliyeva əlavə edib ki, ATƏT-in Minsk Qrupunun həmsədrlərinin, beynəlxalq təşkilatların nümayəndələrinin, ayrı-ayrı ölkələrin rəsmilərinin sülh çağırışları etdiyi, mövcud status-kvonun dəyişdirilməsinin tələb olunduğu bir zamanda, işğalçı Ermənistanın cəbhədə təxribatlar törətməsi açıq-aşkar göstərir ki, bu ölkənin qana susamış rəhbərliyi sülh istəmir: "Ona görə də, dünya birliyi artıq Ermənistanın qanlı əməllərinə sədd çəkməli, işğalçılıq əməllərindən əl çəkməsi üçün ona qarşı sanksiyalar tətbiq edilməli və sülhə məcbur edilməlidir".

**Samir**

## ATƏT-in Minsk Qrupunun həmsədrləri Ermənistan silahlı qüvvələrinin növbəti təxribatı ilə bağlı bəyanat yayıb

**ATƏT-in** Minsk Qrupunun həmsədrləri iyulun 4-də Füzuli rayonunun Alxanlı kəndində yenidən zorakılıq hallarının baş verməsi nəticəsində dinc sakinlər də daxil olmaqla itkilərin yaşanmasına dair bəyanat yayıb. AZƏRTAC xəbər verir ki, bəyanatda həmsədrlər hər iki tərəfi hərbi əməliyyatları dayandırmağa çağırır. "Zorakılıq yalnız sonrakı zorakılığı gətirir və heç nə vermir. Uzun müddətdir, davam edən bu münaqişənin həllinin yeganə məsuliyyətli və humanitar yolu tərəflərin xoş niyyətlə danışıqlar masasına qayıtmasıdır", - deyə bəyanatda bildirilir.

## Bir qrup İran jurnalisti Azərbaycana səfər edəcək



İran-Azərbaycanın münasibətləri yüksələn xətlə inkişaf edir və bu münasibətlər gələcəkdə daha intensiv xarakter alacaq. Bu sözləri İranın Azərbaycandakı səfiri Cavad Cahangirzadə deyib. Səfir bildirib ki, bu günlərdə İranda Azərbaycan Mədəniyyəti Günlərinin keçirilməsi dostluq və qardaşlığımıza bariz nümunədir. Qarşılıqlı mədəniyyət günlərinin keçirilməsi xalqların bir-birini yaxından tanımasına imkan yaradır.

Diplomat, həmçinin məlumat verib ki, gələn həftə İranın müxtəlif mətbuat orqanlarını təmsil edən bir qrup jurnalist Azərbaycana səfər edəcək. KİV nümayəndələri Bakıda və rayonlarda turizm potensialı, sənaye müəssisələri və tarixi abidələrlə tanış olacaqlar. Media sahəsində əməkdaşlığın əhəmiyyətini qeyd edən C.Cahangirzadə deyib ki, mətbuat hər iki ölkənin ictimaiyyətini qarşılıqlı surətdə məlumatlandırmaq baxımından əvəzsiz vasitədir.

## Türkiyə XİN: Ermənistan hərbçilərinin mülki azərbaycanlıları qətlə yetirməsini qətiyyətlə pisləyirik




İyulun 4-də Ermənistan silahlı bölmələri tərəfindən Azərbaycanın Füzuli rayonunun Alxanlı kəndinin atəşə tutulmasını və bunun nəticəsində 50 yaşlı qadının və iki yaşlı nəvəsinin həyatlarını itirməsini qətiyyətlə pisləyirik. Bu xain hücum nəticəsində həyatlarını itirənlərə Allahdan rəhmət diləyir, yaxınlarına başsağlığı verir, yaralanan qadına isə şəfa arzulayırıq. AZƏRTAC xəbər verir ki, bu fikirlər Ermənistan silahlı bölmələri tərəfindən açılan atəş nəticəsində Azərbaycanın mülki vətəndaşlarının həyatlarını itirməsi ilə bağlı Türkiyənin Xarici İşlər Nazirliyinin yaydığı bəyanatda yer alıb.

Bəyanatda deyilir: "Bu mənfur hadisə Azərbaycan torpaqlarının beşdə birini işğal edən Ermənistanın cəbhə xəttində ağır silahlarla təxribat törətməsini, beynəlxalq hüquqa və insan haqlarına zidd olaraq, dinc sakinləri, xüsusilə uşaq və qadınları hədəfə aldığını göstərir. Beynəlxalq ictimaiyyət bilməlidir ki, Ermənistanın sistemli şəkildə yeritdiyi şiddət siyasəti Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinin qarşısında duran ən böyük əngəldir. Ermənistanın işğal etdiyi torpaqlardan çıxarılması üçün təzyiq göstərilməlidir. Türkiyə ATƏT-in Minsk qrupunun üzvü kimi, münaqişənin Azərbaycanın ərazi bütövlüyü və suverenliyi çərçivəsində davamlı həlli istiqamətindəki səyləri dəstəkləməyi davam etdirəcək".



# DSX külli miqdarda narkotik vasitənin ölkəmizə gətirilməsinin qarşısını alıb

*Sərhəd pozucusu "dayan" çağırışına və xəbərdarlıq atəşinə məhəl qoymayaraq, geriyə qaçmağa cəhd göstərib*

Dövlət Sərhəd Xidmətinin əməkdaşları narkotik və psixotrop vasitələrin qanunsuz dövriyyəsinin, qaçaqmalçılığın qarşısının alınması istiqamətində fəaliyyətlərini uğurla davam etdirirlər. DSX-nin mətbuat mərkəzindən "SƏS"ə daxil olan məlumata görə, dövlət sərhədlərimizi etibarlı mühafizə edən sərhədçilər yüksək peşəkarlıq nümayiş etdirərək, növbəti dəfə dövlət sərhədinin pozulmasının və külli miqdarda narkotik vasitənin ölkəmizə gətirilməsinin qarşısını alıblar. Belə ki, 05.07.2017-ci il tarixdə saat 01:00 radələrində Cəlilabad rayonunun Bəyxanlı kəndi ərazisindəki sərhəd zastavasının xidməti sahəsində sərhəd naryadı tərəfindən İrandan Azərbaycana dövlət sərhədini pozmuş bir nəfər sərhəd pozucusu aşkar edilib. Təqib olunan sərhəd pozucusu sərhəd naryadının "dayan" çağırışına və xəbərdarlıq atəşinə məhəl qoymayaraq, geriyə qaçmağa cəhd göstərib. Havanın qaranlıq və ərazinin mürəkkəb relyefi malik olması səbəbindən sərhəd pozucusunun müqabil tərəfə keçməsinin qarşısını almaq məqsədilə sərhəd naryadının "Dövlət sərhədi haqqında" Azərbaycan Respublikası qanununun tələblərinə uyğun olaraq silah tətbiq etməsi nəticəsində sərhəd pozucusu yaralanıb. İlk tibbi yardımın göstərilməsinə baxmayaraq, aldığı güllə yarasından vəfat edib. Sərhəd pozucusunun üzərinə baxış zamanı bir ədəd gecə görmə cihazı və 2 ədəd bağlamada 8 kiloqram 800 qram narkotik maddə olan tiryək aşkar olunaraq, götürülüb.

DSX-nin mətbuat mərkəzindən bildirilib ki, sərhəd pozucusunun şəxsiyyətinin müəyyənləşdirilməsi üzrə və faktla bağlı əməliyyat-istintaq tədbirləri davam etdirilməkdədir.

**Rövşən**

# "Nar" baza stansiyalarının sayını əhəmiyyətli dərəcədə artırıb




2017-ci ilin ilk yarısında "Nar" abunəçilərin rahat və kəsintisiz rabitə və internet xidmətlərindən yararlanması məqsədilə yeni baza stansiyalarının ölkə ərazisində quraşdırılması prosesini davam etdirib. Abunəçilərin artmaqda olan internetdən istifadə tələblərinin qarşılanması üçün bu ilin yanvar ayından etibarən, Bakı, Lənkəran, Qəbələ, Şəki, Şəmkir, Şamaxı, Kürdəmir, Biləsuvar və digər bölgələrdə 165 sayda yeni 3G, Abşeron yarımadasında isə 213 ədəd 4G (LTE) baza stansiyası quraşdırılıb. Beləliklə, "Nar" 794 ədəd 4G baza stansiyası ilə öz istifadəçilərinə ölkədəki ən böyük mobil rabitə şəbəkələrindən birini təqdim edir. 2,3 milyon istifadəçisi olan "Nar" hazırda ölkə ərazisinin 99%-ni əhatə edən və 6000-dən artıq baza stansiyasından ibarət olan geniş şəbəkəsi ilə abunəçilərinə yüksəkkeyfiyyətli xidmət göstərir.

Qeyd edək ki, "Nar" işğaldan azad edilmiş ərazilərdə də şəbəkənin gücləndirilməsi istiqamətindəki işləri davam etdirir. Bir neçə ay öncə operator Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinin ərazisinə xidmət edəcək baza stansiyasının quraşdırılmasını və istismara verilməsini elan etdi. Artıq "Nar" abunəçiləri qeyd edilən ərazidə də 3G və 2G xidmətlərindən yararlana bilirlər. Sərfəli qiymət və yüksəkkeyfiyyətli xidmət prinsiplərinə sadiq qalan mobil operator şəbəkəsinin daha da gücləndirilməsi istiqamətindəki işləri davam etdirməyi planlaşdırır.

Mobil operatorun şəbəkəsi və baza stansiyaları haqqında daha ətraflı məlumatı nar.az internet səhifəsindən öyrənmək olar. "Azerfon" şirkəti 21 mart 2007-ci ildə "Nar Mobile" ticarət nişanı ilə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. "Nar" ticarət nişanı Azərbaycanın zəngin mədəni və tarixi irsinin çağdaş həyatla bağlılığının rəmzi olaraq seçilib. "Nar" ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib.

***Ölkəmizdə həyata keçirilən gənclər siyasəti, eyni zamanda dövlət siyasətinin tərkib hissəsi kimi qiymətləndirilməkdədir. Belə ki, gənclərin vətənpərvərlik tərbiyəsinin, milli şüurunun inkişafı, həmçinin, sosial problemlərinin aradan qaldırılması - mənzil-məişət şəraitlərinin yaxşılaşdırılması, məşğulluğunun artırılması, asudə vaxtlarının səmərəli keçirilməsi və digər məsələlərin həlli üçün çoxsaylı dövlət proqramları qəbul edilib, prezident fərmanı və sərəncamları imzalanıb, beynəlxalq hüquq prinsiplərinə əsaslanan qanunvericilik bazası yaradılıb. Bu faktorlar əsnasında qətiyyətlə deyə bilərik ki, dövlətin diqqət və qayğısı nəticəsində Azərbaycan gəncliyi siyasi, iqtisadi, humanitar və sosial tədbirlərin həyata keçirilməsində mühüm rol oynayır. Əbəs yerə deyil ki, Azərbaycan gənci beynəlxalq elmi simpoziumlarda, idman yarışlarında, mədəniyyət tədbirlərində ölkəsini layiqincə təmsil edir, üçrəngli bayrağını qürur hissi ilə yüksəklərə qaldırır.***

# Milli mənlik şüurunun inkişafında gənclərin rolu əhəmiyyətlidir

### Gələcəyin təminatçısı olan gənclik cəmiyyətin lokomotivi rolunu oynayır

Digər tərəfdən, gənclərin sağlam, vətənpərvərlik ruhunda böyüməsi istiqamətində aparılan dövlət siyasəti gələcəyin formalaşdırılması üçün öz uğurlu sözünü deməkdədir. Çünki sirr deyil ki, gələcəyin təminatçısı olan gənclik cəmiyyətin lokomotivi rolunu oynayır. O cümlədən, avanqard güc hesab edilən gənclik ona göstərilən diqqət və qayğıdan doğru yararlanmalı, demokratik, müasir-müstəqil Azərbaycanın tərəqqisində möhkəm təməllərə söykənməlidir. Reallıq da onu sübut edir ki, bu istiqamətdə həyata keçirilən işlər çoxşaxəlidir. Məsələn, ümumtəhsil məktəblərində həyata keçirilən kütləvi tədbirlər, maarifləndirmə və təbliğat işləri, bilavasitə gənclərin mənəvi, fiziki, psixoloji hazırlığının təmin edilməsinə, onlarda Vətənə və doğma torpağa məhəbbət hissinin yüksəldilməsinə xidmət edir. Ümummilli Lider Heydər Əliyev müəllimlərə tövsiyə xarakterli tarixi çıxışlarında bildirirdi ki, müəllimlər bütün qüvvə və bacarıqlarını doğma vətənə sədaqətli, hərtərəfli inkişaf etmiş, müstəqilliyimizi və dövlətçiliyimizi göz bəbəyi kimi qorumağa hazır olan nəslin yetişdirilməsinə sərf etməlidirlər. Nəzərə almaq lazımdır ki, xalqımızın Dağlıq Qarabağ kimi qaysaq bağlamayan yarası var. Torpaqlarımızın 20 faizi Ermənistan tərəfindən işğal olunub. Bu baxımdan, yetişməkdə olan gənc nəslin vətənpərvərlik tərbiyəsinin düzgün təşkil olunması böyük aktuallıq kəsb edir. Artıq ümumtəhsil məktəblərinin X-XI siniflərində "Gənclərin çağırışaqədərki hazırlığı", 8-ci sinifdə isə "Qarabağ tarixi" fənni tədris olunur. Bu fənlərin tədrisi şagirdlərdə vətənpərvərlik hisslərinin gücləndirilməsi, hərbi-idman oyunlarının kütləviliyinin artırılmasında mühüm rol oynayır. Hətta yaxın illərdə həmin fənlərin tədrisinin təkmilləşdirilməsi də nəzərdə tutulur.

Həmçinin, gənclər təşkilatları ilə ümumtəhsil məktəblərinin şagirdləri arasında ənənəvi hərbi-idman və turizm respublika oyunları keçirilir, müxtəlif mövzularda yaradıcılıq müsabiqəsi təşkil olunur. Təhsil Nazirliyi Gənclər və İdman Nazirliyi, Müdafiə Nazirliyi, Fövqəladə Hallar Nazirliyi, Dövlət Sərhəd Xidməti, Könüllü Hərbi Vətənpərvərlik Texniki-İdman Cəmiyyəti Respublika Şurası və Respublika Veteranlar Şurası ilə işgüzar əlaqələr qurulur. Bütün bunlarla yanaşı, bu, reallıqdır ki, vətənpərvərlik hissinin aşılanması ancaq fənnin tədrisi və ya hərbi-idman yarışlarının keçirilməsi ilə məhdudlaşmamalıdır. Ziyalıların, siyasi - ictimai təşkilatların iştirakı ilə keçirilən tədbirlərdə, dəyirmi masalarda vətənpərvərlik hissinin gənclərə çatdırılması, maarifləndirmə işlərinin aparılması əsas fəaliyyət istiqamətlərindən olmalıdır, nəzərə alınmalıdır ki, vətənpərvərlik müqəddəs məfhumdur.

### Ulu Öndər ideyalarından qaynaqlanan Vətən sevgisi

Alman filosofu İmmanuel Kantın belə bir fikrini xatırlatmaq yerinə düşərdi: "Gənclik zamanı günlər qısa, illər uzun, qocalıq zamanı isə günlər uzun, illər qısa olur". Ümummilli Liderimiz Heydər Əliyev isə öz tarixi çıxışlarının brində vurğulayıb: "Müstəqilliyi qazanmaq olar, amma onu qoruyub-saxlamaq çox çətindir".

Bəli, Vətənini sevən, öz xalqına və vətəninə sadiq və onların mənafeyi yolunda canından keçməyə hazır olan insan, birmənalı olaraq vətənpərvərdir. Biz bunu ötən ilin aprelində işğal altında qalmış torpaqlarımızın bir qisminin azad edildiyi zaman şahidlərinə çevrildik. Çünki Ana Vətən böyüyüb, boya-başa çatdığımız, suyunu içib, havasını udduğumuz diyardır. Vətənpərvərlik isə özü için deyil, eli üçün yaşamaqdır. Necə ki, Ulu Öndərimiz Heydər Əliyev bütün ömrünü ancaq xalqına və dövlətinə həsr etdi. Ona görə də, qeyd edə bilərik ki, gənclər Ulu Öndərin ideyalarından qaynaqlanan Vətən sevgisi ilə yaşayırlar. Belə ki, Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi istər 1969-1982, istərsə də 1993-2003-cü illərdə gənclərin himayədarı olaraq sağlam düşüncəli yeni nəslin yetişdirilməsini dövlət və cəmiyyətin mühüm vəzifəsi hesab edib. Onun potenisal güc mənbəyi kimi elmi-fiziki gənclərinə üstünlük verdiyi, ictimai və sosial həyatın, cəmiyyət quruculuğunun bütün sferalarında təmsil olunmalarına geniş imkanlar yaratdığı qüvvə həmişə gənclər olub. Bu baxımdan, Onun Fərmanı ilə 1994-cü il iyulun 26-da Gənclər, İdman və Turizm Nazirliyi yaradılıb. 1995-ci ildə isə Azərbaycan Gənclərinin Forumunun keçirilməsi təşəbbüsünü irəli sürüb. 2 fevral 1996-cı il tarixdə müstəqil Azərbaycan gənclərinin ilk forumu keçirilib və Dahi Öndər tədbirdə şəxsən iştirak və çıxış edərək gənclərə öz tövsiyələrini, məsləhətlərini verib. 1 fevral 1997-ci il tarixində forumun ildönümü münasibətilə gənclərin bir qrupunu qəbul edən Ümummilli Lider Heydər Əliyev "2 fevral - Azərbaycan Gəncləri Gününün elan edilməsi haqqında" Sərəncam imzalayıb. Həmin vaxtdan etibarən, ənənəvi olaraq hər il 2 fevral günü Azərbaycan gənclərinin bayramı kimi təntənəli şəkildə qeyd olunur.

Heydər Əliyev tərəfindən təməli qoyulan gənclər siyasətinin əsas məqsədi yeni nəslin fiziki, mənəvi-psixoloji cəhətdən sağlam yetişməsini, istedadlı gənclərin üzə çıxarılması və onların ölkənin gələcəyinə töhfə verməsini təmin edib. "Gənc istedadlar üçün xüsusi təqaüdlərin təsis edilməsi haqqında", "Azərbaycanın gənc istedadlarına dövlət qayğısı haqqında", "Dövlət gənclər siyasəti haqqında" qanun, fərman və sərəncamlar, həmçinin, "Gənc ailə", "istedadlı yeniyetmələrin və yaradıcı gənclərin sosial, iqtisadi və s. problemlərinin həllinə yönəlmiş, onların öz qabiliyyətlərini inkişaf etdirmələrinə kömək edən Dövlət Proqramı" və digər proqramlar çərçivəsində ölkəmizdə gənclərin sosial-maddi şəraitinin yüksəldilməsi, ictimai fəallığının artırılması istiqamətində mühüm fundamental baza olub.

### Prezident İlham Əliyev gənclərin hamisi və dostudur

Ulu Öndər Heydər Əliyevin gənclər siyasəti Onun ən layiqli siyasi varisi, ölkə Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Prezident İlham Əliyevin gənclərin potensialından ölkənin mənafeyi naminə tam və düzgün istifadə olunması, onların faydalı məşğulluğunun təmin edilməsi, dövlət idarəçiliyi sistemində iştirakının gerçəkləşdirilməsi məqsədilə 2005-ci il avqustun 30-da imzaladığı "Azərbaycan gəncliyi Dövlət Proqramının (2005-2009-cu illər) təsdiq edilməsi haqqında" Sərəncamı da gənclərə dövlət qayğısının artırılması məqsədinə xidmət edir. Proqrama uyğun olaraq gənclərin sosial müdafiəsi, məşğulluğunun təmin edilməsi, yaradıcılıq axtarışlarının stimullaşdırılması, milli ruhda təlim-tərbiyəsi, hərbi-vətənpərvərlik tərbiyəsinin gücləndirilməsi, sağlam həyat tərzinin təbliği istiqamətində tədbirlər həyata keçirilib. Sonrakı illərdə də gənclər siyasəti üzrə Dövlət Proqramı reallaşdırılıb və bu proqramların 100-dən çox bəndi həyata keçirilib. Dövlət başçısının Fərmanı ilə Gənclər və İdman Nazirliyi 2006-cı ildə yenidən təşkil edilmiş, gənclər siyasətinin əsas icra orqanı qarşısında yeni vəzifələr qoyulub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən 2007-ci il ölkədə "Gənclər İli" elan edilib. "Xüsusi istedada malik olan uşaqların (gənclərin) yaradıcılıq potensialının inkişafı üzrə Dövlət Proqramı" (2006-2010-cu illər)", "Azərbaycan Respublikasında texniki-peşə təhsilinin inkişafı üzrə Dövlət Proqramı" (2007-2012-ci illər) gənclər siyasətinin daha da təkmilləşdirilməsini təmin edir, gənclərin yaradıcılıq potensialının aşkara çıxarılmasına, yaradıcılıq potensialının reallaşdırılması üçün lazımi şəraitin yaradılmasına, səmərəli idarə edilməsinə, intellektual səviyyəsinin yüksəldilməsinə, xüsusi istedadlıların seçilməsinə və onlara müvafiq tədbirlərin həyata keçirilməsinə sosial problemlərinin həllinə böyük zəmin yaradır. Gənclər bu gün dövlət orqanlarında, parlamentdə, bələdiyyələrdə, biznes strukturlarında və s. sahələrdə təmsil olunur və cəmiyyətin inkişafına öz töhfələrini verirlər.Dövlət orqanlarına işə qəbul edilənlərin 70 faizə qədərini, məhz gənclər təşkil edir. Bu gün Azərbaycan gənclər təşkilatları 11-dən çox beynəlxalq təşkilata üzv qəbul edilib. Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı çərçivəsində minlərlə gəncimiz dünyanın nüfuzlu ali məktəblərində təhsil alırlar. Əbəs yerə deyil ki, azərbaycanlı gənclər ölkəmizin ehtiyac duyduğu sahələr üzrə müxtəlif təhsil səviyyələri üzrə dünyanın ən qabaqcıl universitetlərinə göndəriliblər və bu siyasət davam etdirilir. Hazırda ölkədə 200-ə yaxın gənclər təşkilatı, 20-dən artıq ali məktəbdə fəaliyyət göstərən tələbə - gənclər təşkilatları var. Onların əhatə etdikləri məsələlər də kifayət qədər genişdir: gənclərin vətənpərvər ruhda tərbiyəsi, məlumatlandırılması, işsizliyin azaldılması, gənclərin sağlamlığı, təhsili, fəal vətəndaş mövqeyi, mədəniyyətin geniş kütlələr arasında təbliği və s. məsələlər kifayət qədər aktualdır. Nəticədə, tam əminliklə qeyd edə bilərik ki, gənclərlə bağlı qəbul edilən Dövlət Proqramının əsas məqsədi Azərbaycan Respublikasında gənclər siyasətini daha da inkişaf etdirmək, gənclərin menecment sahəsində fəal iştirakına şərait yaratmaq, gənc mütəxəssislərin işlə təminatı və digər sosial-iqtisadi problemlərinin həllini təmin etməkdir. Bir sözlə, yetişməkdə olan gənc nəslin doğma yurduna mənən və ruhən bağlılığı üçün hər cür şərait və imkanlar yaradılır. Bu imkanlar gəncləri daha böyük əzmlə Vətəninə, doğma Azərbaycanına bağlı olmağa həvəsləndirir. Əlbəttə ki, 5 min illik dövlətçilik tarixi olan Azərbaycanda qürur mənbəyimiz olan Cavanşir, Babək, Şirvanşah İbrahim, Şah İsmayıl Xətai, Cəmşid bəy Naxçıvanski, Həzi Aslanov, İsrafil Məmmədov, Mehdi Hüseynzadə və nəhayət, Mübariz İbrahimov, Fərid Əhmədov kimi igid və cəsur övladların yetişdiyi diyardan ancaq vətənsevər, qəhrəman gənclik yetişə bilər. Heç şübhəsiz ki, belə olub, bundan sonra da belə olacaq. Ona görə ki, Ümummilli Liderimiz Heydər Əliyev bizlərə belə olmağı tövsiyə edib.

***Samirə Cəfərova***

*Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun keçirdiyi müsabiqəyə təqdim etmək üçündür*

# Xədicə İsmayıl dağıdıcı müxalifəti "yıxıb-sürüdü"!

## *"Müsavatçılar da Gürcüstana gedib-gəlməyi elə qəhrəmanlıq kimi sırıyırlar ki..."*



Dağıdıcı müxalifət düşərgəsində təmsil olunan partiyalararası qarşıdurmalar son günlər daha da şiddətlənib. Artıq əvvəllər daha çox seyrçi mövqe tutmağa çalışanlar da, bir-birilərini açıq şəkildə ittiham edirlər. Ən biabırçı məqam isə odur ki, bir-biriləri ilə təmənnalı şəkildə "dost"luq edən cəbhəçilər, "Nida"çılar, "REAL"çılar və müsavatçılar bu gün mövqe savaşına girişiblər. Qondarma "hüquq müdafiəçisi" Xədicə İsmayılın sosial şəbəkələrdə dağıdıcı müxalifəti sərt şəkildə tənqid etməsi bu düşərgədəki ziddiyyətləri daha da artırıb.

Belə ki, X.İsmayıl sosial şəbəkə vasitəsilə ard-arda iki status yazaraq özünün "əsl müxalifət", "ana müxalifət" adlandıranları lağ obyektinə çevirib: "Müxalifət qurumlarının hamısı uğursuzların siyahısındadır. "Mən daha yaxşı müxalifətçiyəm" deyəndə bir az qəribə çıxır yəni...". X.İsmayıl digər statusunda isə konkret hədəf göstərib: "Müxalif siyasətçiləri gün vurub. Havalanıblar. AXCP və "REAL" dəyiblər bir-birinə boş yerə. Nəyi bölüşürlər, anlaya bilmirəm. Müsavatçılar da Gürcüstana gedib-gəlməyini elə qəhrəmanlıq kimi sırıyırlar ki, deməyə söz tapmıram".

X.İsmayılın məlum statuslarına təhqir dolu cavabları özünü çox gözlətməyib. Xüsusilə də, "REAL" üzvləri, cəbhəçilər və müsavatçılar onu yazdığı statusa görə peşman edəcəklərini bildiriblər. Ancaq məsələnin nisbətən açıq görünən tərəfləri də var. Məsələn, həqiqətən də, müsavatçılar Arif Hacılının Gürcüstana getməsini o qədər şişirdiblər ki, sanki hansısa "böyük" səfərdə olub. X.İsmayıl da, "müsavatçılar da Gürcüstana gedib-gəlməyini elə qəhrəmanlıq kimi sırıyırlar..." deməklə, məhz A.Hacılını nəzərdə tuturlar.

X.İsmayılın statuslarına Altay Göyüşov sərt reaksiya verərək, onu arsızlıqda ittiham edib. Müxalifətçilər, eyni zamanda X.İsmayılı ədalətsiz tənqiddə ittiham ediblər. Bununla yanaşı, X.İsmayılın dağıdıcı müxalifət haqqında səsləndirdiyi ittihamlara dəstək verənlər də olub. Şərh müəlliflərindən biri yazıb ki, "Azərbaycan muxalifəti gəncləri tırkaya verməkdən başqa bir işə yaramır, işləri-gücləri xaricdən qrant alıb 5-3 nəfəri "Məhsul" stadionuna çıxartmaq, ya da hansısa bığı təzə çıxmış gənc insanın muxalif ideologiyası ilə beyinlərini doldurub, onları güdaza verməkdir, başqa bir işə yaramırlar".

***Samir***

# Dağıdıcıların yay mitinqləri - baş tutacaqmı?

## *Araz Əlizadə: "Mən onları məyus edəcəyəm"*

Hazırda dağıdıcı müxalifətin əsas müzakirə mövzularından biri də mitinqlər keçirmək planlarıdır. Artıq AXCP, Müsavat və s. hərəkat və qurumlar bu və ya digər adlarda mitinq keçirmək üçün müzakirələr aparırlar. Lakin fakt budur ki, payız aylarında keçirilən mitinqlərində rüsvayçı nəticələr göstərən düşərgə təmsilçilərinin yenidən ortaya atılıb siyasi oyunbazlıq göstərmələrini heç özləri də ciddi qəbul etmirlər. Sadəcə, ortada olan onların erməni lobbisi ilə yaxınlıq etmiş Qərb havadarlarının yeni planlarını icra etmək cəhdləri dayanır ki, bunun da reallaşması qeyri-mümkün görünür. Daha dəqiq desək, ötən uğursuz mitinqlər hər şeyi tam çılpaqlığı ilə sərgiləmişdi. Misal üçün, bir həftə ərzində 3 mitinq keçirən müxalifətin bazası əvvəlki illərlə müqayisədə xeyli zəifləməsi, keçirilən mitinqlərdə iştirakçı sayının azlığı bütün bunlara tam əsas vermişdir.

### ASDP sədri: "Azərbaycan müstəqil siyasət yürüdür, bu fakt isə xarici qüvvələri narahat edir"

Məsələ ilə bağlı ASDP-nin sədri, deputat Araz Əlizadənin də fikirləri maraq doğurur. Onun sözlərinə görə, həqiqət bundadır ki, hazırkı müxalifətin potensialı ölüdür. SİTAT: "Buna görə də, bu mitinqi acınacaqlı adlandırardım. Belə ki, müxalifətin mitinqlərində bir dənə də olsun konstruktiv fikir səsləndirilmir. Bəs nə üçün müxalifət mitinq keçirir? Ona görə ki, avropalı sponsorları qarşısında hesabat verəcəklər". A.Əlizadə 100% əmin olduğunu deyir ki, bu gün də ucuz müxalifətin arxasında ermənipərəst Qərb qüvvələri, erməni lobbisi və havadarlar dayanır. Çünki Azərbaycan müstəqil siyasət yürüdür, bu fakt isə xarici qüvvələri narahat edir. "Böyük Qərb dövlətlərinin heç biri digər ölkələrlə dost deyil"-deyə fikir irəli sürən ASDP sədri əlavə edir ki, sadəcə olaraq, onlar öz maraqlarını həyata keçirmək istəyirlər: "Ona görə də, müstəqil siyasət yürüdən dövlətləri sevmirlər. Çalışırlar ki, həmin dövlətlərdə əmin-amanlıq və sabitlik olmasın. Yaxın Şərqi demokratiya adı ilə viran qoyduqları kimi, Azərbaycanda da bu situasiyanı yaratmağa can atırlar. Hazırda Qərb ölkələrinin dilində demokratiya və insan azadlığı termini böyük bir dəyənəyə çevrilib. Hansı dövlət ki, inkişaf edir, orada sabitlik var, həmin ölkələrdə aranı qatmaq istəyirlər. Bu zaman onlar çaxnaşma salmaq istədikləri ölkələrdəki adamlarından istifadə edirlər. Məhz buna görə də, Əli Kərimli, İsa Qəmbər, Arif Hacılı, Xədicə İsmayıl və başqaları zaman-zaman Qərb səfirliklərinə tez-tez gedib-gəlirlər".

### "Onların "yem" üçün bir-birini parçalamalarının şahidi oluruq"

A.Əlizadə dağıdıcı müxalifətin düşdüyü ağır vəziyyəti təsvir edib, bundan sonra Qərbin onlara bu və ya digər şəkildə dəstəyi azaldacağını da inkar etməyib. O, hesab edir ki, nə Avropa, nə də Amerika siyasi acizlərə gələcəkdə yatırım etməyəcək, çünki etibar krediti tükənib. SİTAT: "Qərbdə azərbaycanlı müxalifəti çox yaxşı tanıyırlar - ciblərini dolduran bir toplum adam kimi. Bunlar 90-cı illərdən bəri müxalifətin ön sıralarında dayanır. Hər birinin evi, maşını, xaricdə təhsil alan övladı, bir sözlə, əcnəbi daxilolmaları hesabına çox gözəl həyat qurublar. İndi isə onların "yem" üçün bir-birini parçalamalarının şahidi oluruq".

Deputat dağıdıcı müxalifəti məyus edəcəyini də bildirib və qeyd edib ki, onlar mitinqlərə ümid edirlərsə, əbəs yerə başlarını ağrıdırlar: "Əgər müxalifətçilərdən kimsə mitinqlər hesabına vəziyyəti dəyişəcəyinə ümid edirsə, mən onları məyus edəcəyəm. Onlarda heç nə alınmayacaq. Azərbaycan cəmiyyəti indi 90-cı illərdəki kimi düşünmür. Eləcə də, xalq bu satqınları unutmayıb".

Görünən budur ki, müxalifətin mitinq keçirmək cəhdləri nəticəsiz qalmaqla yanaşı, onlar bir daha özlərini rüsvay edəcəklər.

***Rövşən NURƏDDİNOĞLU***

# Müxalifətçilərin "seçki ideyaları" bitib-tükənmir, ancaq...

## *Heç bir reallıqlara cavab vermir*

***Son günlər dağıdıcı müxalifət düşərgəsinin müxtəlif cinahlarında 2018-ci ildə keçiriləcəyi gözlənilən prezident seçkiləri ilə bağlı "hazırlıq işlərinin aparılması", yaxud da bu istiqamətdə namizədlərin müəyyənləşdirilməsi ətrafında məntiqsiz və qeyri-ciddi təbliğatlar aparılır. İstər AXCP və "Milli Şura" cütlüyünün keçirdiyi toplantılarda, istər Müsavat partiyasının media orqanında ictimai rəy qarşısında elə saxta görüntülər yaradılır ki, guya bu siyasi təşkilatların "liderləri", seçkilərdə uğur qazana bilərlər.***

### Onların məqsədləri müxaifətdə qalıb xarici ağalarının əmrlərinə nökərçilik etmək, bunun üçün onların qarşılarına atılan payları mənimsəməkdən ibarətdir

Ümumiyyətlə, 24 ildən artıqdır ki, müxaifətdə qalaraq naftalin iyi verən, yalnız öz şəxsi maraqları üçün bir-biriləri ilə didişib-çarpışan, qarşılıqlı təhqirlərə qədər gedərək, öz düşərgədaşlarına düşmən kəsilən siyasətbazların, ötən seçkilərdə olduğu kimi, bu dəfə də eyni acı aqibət yaşayacaqlarını xalq və ictimai-siyasi rəy yaxşı dərk edir. O cümlədən, artıq belə bir qəti qənaətə gəlmək mümkündür ki, müxalifət "liderləri" heç də seçkilərdə uğur qazanmaq deyil. Onların məqsədləri müxaifətdə qalıb xarici ağalarının əmrlərinə nökərçilik etmək, bunun üçün onların qarşılarına atılan payları mənimsəməkdən ibarətdir. Daha dəqiq desək, bu gün özünə "lider" deyib müxalifət düşərgəsində var-gəl edənlər siyasi arenanı özlərinə biznes vasitəsi kimi seçiblər. Bu, təkzibedilməz bir aksiomdur.

### YAP rəsmisindən "VİP" sədrinə əhatəli cavab: "Hesab edirəm ki, Əli Əliyevin bu ehtimalı irəli sürməkdə məqsədi diqqəti üzərinə çəkmək və gündəmdə qalmaqdır"



Yeri gəlmişkən, bu ərəfələrdə daha bir müxalifət partiyasının sədri gündəmdə qalmaq üçün özündən "ideya" kəşf edərək, məntiqsizliyə söykənən "təkliflə" çıxış edib. Bəri başdan, onu da deyə bilərik ki, həmin "ideya", ya da "təklif" bu partiya sədrinin öz düşüncə məhsulu deyil və kənardan atılmış "daşdır". Belə ki, "Vətəndaş və İnkişaf Partiyası"nın (VİP) sədri Əli Əliyev ölkə saytlarından birinə verdiyi açıqlamasında gələn ilin oktyabr ayında keçirilməsi gözlənilən prezident seçkilərinin vaxtının daha qabaq tarixə keçirilməli olduğunu bildirib.

Lakin "VİP" sədrinin cavabı əhatəli və reallıqlara söykənən faktlarla verilib. Yeni Azərbaycan Partiyasının (YAP) Siyasi təhlil və proqnozlaşdırma şöbəsinin müdiri, deputat Aydın Mirzəzadə Ə.Əliyevin fikri ilə razılaşmadığını deyərək, arqumentlər irəli sürüb. "Hesab edirəm ki, Əli Əliyevin bu ehtimalı irəli sürməkdə məqsədi diqqəti üzərinə çəkmək və gündəmdə qalmaqdır"-deyə qeyd edən Aydın Mirzəzadəyə görə, bu gün Azərbaycanda inflyasiyanın qarşısı alınıb, manat xarici valyutalara nisbətdə möhkəmlənib, ölkədə söz azadlığı var, çoxlu sayda yeni iş yerləri yaradılır, sahibkarlara ciddi şəkildə dövlət dəstəyi göstərilir, ölkənin valyuta ehtiyatları artır və s. SİTAT: "Ona görə də, seçkilərin vaxtından əvvəl keçirilməsi fikrinin əsası yoxdur. Azərbaycan Respublikasının Konstitusiyasına uyğun olaraq gələn il prezident seçkiləri keçiriləcək. Qanuna uyğun olaraq, hər bir Azərbaycan vətəndaşı bu seçkilərə namizədliyini irəli sürə bilər". Göründüyü kimi, indi də seçki mövzusu ətrafında məqsədli dividend qazanmağa cəhd edən müxalifətçilər heç də öz iddialarında haqlı deyillər. O cümlədən, onların bənzər mövqeləri heç bir reallığı əks etdirməməklə yanaşı, siyasi bilgilərinin də normadan aşağı olduğunu sübuta yetirir. Hər halda, onlardan daha artığını gözləməyə də dəyməz...

***R. RƏSULOV***

# Azərbaycanda dövlətçilik şüurunun formalaşması

***Dövlətçilik şüuru hər hansı bir ölkənin vətəndaşlarında dövlətə mənsub olmaq hissiyyatı formalaşdırır. Bu baxımdan, azərbaycanlıların dövlətçilik şüurunun təşəkkülü və inkişafı, milli dövlətçilik ənənələrinin bərpa olunmasında əsas rol oynamışdır.***

Dövlətçilik şüuru xalqın daxilində olan dövlətçilik hissiyyatının, onun mənsub olduğu dövlətlə bağlılığının ifadəsidir. Ulu Öndər Heydər Əliyev demişdir: “Əgər hər hansı ölkənin xalqları öz hüquqlarını anlayır və onları qoruya bilirsə, o zaman ən kiçik dövlət belə ən böyük məmləkət qədər güclü olar”. Ən çətini də, məhz insanlarda dövlətçilik şüurunun formalaşdırılması və ya inkişaf etdirilməsidir. Ən çətini əşyaya, rəngə, şeirə, musiqiyə, formaya olan konkret hissi münasibətin, onların zahiri qavranılmasının arxasında bir sevginin, bir müqəddəslik duyğusunun, fərdi və milli özünüdərk məqamının dayanmasıdır.

Dövlətçilik ənənəsi insanlara milli özünütəsdiq imkanı verən milli dövlətə münasibətin tarixən qərarlaşmış və əsasən, şüurlarda yaşayan, milli şüurun başlıca tərkib hissəsi olan mənəvi-tarixi bir prosesdir. Bu proses, bu hadisə öz maddi təcəssümünü ayrı-ayrı konkret dövlət nümunələrində, dövlət idarəçiliyi formalarında tapmaqla yanaşı, həm də ümumiləşmiş rəmzi təzahürlərə ehtiyac hiss edir. Tək özü üçün yaşamayıb, xalqa, millətə bağlı olmaq onun ağrı-acılarını bölüşmək və nailiyyətlərinə sevinmək, ümummilli inkişaf naminə fəaliyyət göstərmək və öz şəxsi səadətini ümummilli səadət kontekstinə salmaq, millətlə və milli dövlətlə qaynayıb-qarışmaq fərddən vətəndaşa çevrilməyin mühüm şərtləridir. Hüquqi müstəvidə, formal olaraq, vətəndaşlıq pasportu almaqla rəsmiləşir, lakin məzmun müstəvisində vətəndaşlıq şüurda gedən proseslərin, milli dövlətçilik duyğularının təkamülünün, mədəni-mənəvi yetkinliyin nəticəsi kimi ortaya çıxır. Məzmunca vətəndaş kimi formalaşmamış insanların formal vətəndaşlığı dövlətçiliyin möhkəmləndirilməsinə xidmət etmir.

AMEA-nın müxbir üzvü Səlahəddin Xəlilov dövlətçilik şüurunun tarixi əhəmiyyəti haqqında yazmışdır: “Azərbaycanda dövlətçilik ənənələrinin qədim tarixi vardır. Lakin bu tarix dəfələrlə qırılmış və yenidən bərpa olunmuşdur. Bu gün onun vahid, bütöv proses kimi təsəvvür olunması çox çətindir. Lakin Azərbaycan ərazisindəki qədim dövlətlər də, orta əsrlərdəki böyük imperiyalar parçalansalar da, hər halda, müstəqil dövlət qurumları olan xanlıqlar da və nəhayət, Azərbaycan Xalq Cümhuriyyəti və hətta Azərbaycan Sovet Sosialist Respublikası da milli dövlətçiliyin ayrı-ayrı müstəqil məqamları və təzahürləri olmaqla yanaşı, həm də vahid və böyük bir tarixi prosesin hissələridir. Əlbəttə, təəssüf ki, bu böyük tarixi proses heç də bütöv, kəsilməz bir hadisə deyildir. Lakin ayrı-ayrı tarixi hadisələrin, sadəcə, toplusu da deyildir. Bu tarixi hadisələr, tarixin müxtəlif dövrlərində yaranmış və müəyyən müddət ərzində fəaliyyət göstərmiş müstəqil dövlət qurumları arasında, bilavasitə tarixi varislik olmasa da, milli-mənəvi, mədəni varislik mövcuddur ki, bunlar da dövlətçiliyin nisbi kəsilməz mənzərəsini yaratmağa və dövlətçilik ənənələrinin nə vaxtsa güclənən və nə vaxtsa arxa plana keçən, lakin həmişə real və ya virtual formada yaşamaqda davam edən bütöv proses kimi dəyərləndirilməsinə imkan verir”.

Müəllifin fikrincə, müasir demokratik Azərbaycanda müstəqil dövlət “quruculuğu “ prosesi uğurla davam etdirildiyi bir şəraitdə qarşıda, həm də tarixin bərpa olunması, onun bütövlüyünün təmin olunması kimi məsul bir vəzifə də durur. Təsadüfi deyildir ki, Ulu Öndər Heydər Əliyev müstəqil Azərbaycan dövlətinin möhkəmləndirilməsi, müstəqilliyin dönməzliyinin təmin olunması, dövlətçilik tariximizin müasir mərhələsinin kəsilməzliyinin təmin edilməsi kimi şərəfli bir vəzifəni yerinə yetirməklə məhdudlaşmayıb, həm də tarixi dövlətçilik şüurunun bərpa olunması, dövlətçilik ənənələrinin qədim köklərinin üzə çıxarılması və müasir tariximizə qatılması sahəsində də məqsədyönlü iş aparır. Onun tərəfindən dəfələrlə nümayiş etdirilən tariximizə xüsusi diqqət və həssas münasibət, sadəcə olaraq, tarixin bir milli-mənəvi sərvət kimi qorunması təşəbbüsü deyildir. Bu xüsusi diqqət daha çox dərəcədə bugünkü milli dövlət quruculuğu işində, vətəndaşlıq duyğusunun, millətə, dövlətə, vətənə sevgi hissinin gücləndirilməsində tarixə söykənmək və gələcəyə gedən yolu daha möhkəm, daha dərin əsaslar üzərində salmaq istəyinin təzahürüdür.

Bu gün siyasi ədəbiyyata dövlətçilik ideyası hələ öz nəzəri konseptual şərhini tapmamışdır.

Dövlətçilik ənənələri olan ABŞ Avropa ölkələrində “national”, yəni “milli” sözü “dövlətçilik” mənasını ifadə edir. Lakin səhv olaraq bu ifadə Azərbaycan dilinə “millət” kimi tərcümə olunur.

S.Xəlilovun fikrincə, klassik Qərb ölkələrində olduğu kimi, heç şübhəsiz, bir sıra qədim Şərq ölkələrində də dövlətçilik ənənələri yaşamaqda davam edir. Hətta ilk baxışda belə görünə bilər ki, Şərqdə bu ənənələr daha qədim və daha möhkəm olmalıdır. Çünki ilk dövlətlər Şərqdə yaranmışdır. Lakin tarixdə qalmış dövlətlər başqa şeydir, yaşayan dövlətin tarixi bir başqa şey. Dövlətçilik ənənələrinin yaşaması, əsasən, kəsilməz tarixlə, indi də yaşamaqda olan dövlətlərin təcrübəsi ilə bağlıdır.

S.Xəlilov haqlı olaraq göstərir ki, Azərbaycanda dövlət olanda Fransada və Almaniyada dövlət olmamışdır. Lakin Avropada dövlətçilik ənənələrinin güclü olmasının səbəbi, əsasən, yeni dövr adlanan 500 illik bütöv bir epoxada kəsilməz tarixin olmasıdır. Azərbaycan tarixində isə böyük fasilələr ənənələrin itməsinə və ya zəifləməsinə səbəb olmuşdur. Məhz buna görədir ki, Ulu Öndər Heydər Əliyev müasir dövlət quruculuğunda bugünkü həyatımızla və düşüncə tərzimizlə daha çox kəsilməz əlaqələri olan yaxın keçmişin rolunu, xüsusilə vurğulamışdır. Yeni 2001-ci il, yeni əsr və üçüncü minillik münasibətilə Azərbaycan xalqına müraciətində Ulu Öndər Heydər Əliyev bununla əlaqədar belə demişdir: “XX əsrdə bizim qazandığımız uğurlar, o cümlədən, müstəqil dövlət qurmaq əzmimizin köklərini uzaq və yaxın tariximizdə, xüsusilə, XIX əsrdə formalaşmış və təşəkkül tapmış qaynaqlarda axtarıb tapmaq lazımdır”.

Əlbəttə, Azərbaycanda dövlətçiliyin inkişafı ən çox onun ərazisində milli dövlət qurumlarının və milli siyasi liderlərin fəaliyyət göstərdiyi dövrlərlə bağlıdır və belə dövrlər Azərbaycan tarixində az olmamışdır. Ulu Öndər Heydər Əliyev bununla əlaqədar demişdir: “Cavanşir və Babək kimi sərkərdələrin qəhrəmanlıqları böyük vətənpərvərlik məktəbinə çevrilmiş, vətənin bütövlüyü xalqın birliyinin təcəssümü olmuşdur. Məhəmməd Cahan Pəhləvanın, Qızıl Arslanın, Uzun Həsənin, Şah İsmayıl Xətainin və başqa dövlət xadimlərimizin həyat və fəaliyyəti xalqın vətən sevgisi və dövlətçilik hissini daha da inkişaf etdirmiş, onu həyatın ən vacib, ən ümdə məqsədinə çevirmişdir”.

Əlamətdar haldır ki, bu ənənələr milli dövlətin olmadığı dövlətsizləşmə dövründə də, müxtəlif formalarda və müxtəlif vasitələrlə yaşaya bilmişdir. Xüsusən, şifahi xalq ədəbiyyatı, nağıllarımız və dastanlarımız, bu kəsilməzliyin qismən də olsa, təmin olunmasına xidmət etmişlər. Təsadüfi deyildir ki, Ulu Öndər Heydər Əliyev dövlətçiliyimizin tarixində “Kitabi-Dədə Qorqud”un rolunu, dilin və mədəniyyətin rolunu neçə-neçə müharibələrdə qələbə çalan, adlı-sanlı sərkərdələrin rolundan heç də az qiymətləndirmir. “Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında” Fərmanında Ulu Öndər Heydər Əliyev demişdir: “Azərbaycan dilinin bugünkü inkişaf səviyyəsi göstərir ki, Azərbaycan xalqı dünyanın ən qədim xalqlarındandır... “Kitabi-Dədə Qorqud”un meydana çıxa bilməsi üçün Azərbaycan dili böyük tarixi-ədəbi hazırlıq mərhələsi keçməli idi”. Yaxud başqa bir yerdə: “İki mininci ildə 1300 illik yubileyini təntənə ilə qeyd etdiyimiz “Kitabi-Dədə Qorqud” kimi möhtəşəm bir abidəyə malik olmaq da, onu göstərir ki, bu torpaqda hələ bizim eramıza qədərki dövrdə böyük bir mədəniyyət mövcud olmuşdur”. Dil və dövlətçiliyin, mədəniyyət və dövlətçiliyin sıx əlaqələrə malik olduğuna istinad edən Ulu Öndər Heydər Əliyev bu gün də dövlətçiliyin inkişaf etdirilməsində bu amilləri ön plana çəkir. İranda da böyük dövlətçilik ənənələri və dövlətçilik təfəkkürü vardır və bu ənənə, bu təfəkkür etnik-milli hissdən, milli özünüdərkdən yüksəkdə durur. Lakin İranda bu vəziyyət təkcə dövlətçilik təfəkkürünün inkişafı ilə deyil, həm də milli hissin və etnik-milli özünüdərkin inkişafdan qalması, aşağı səviyyədə olması ilə bağlıdır.

Bizdə isə əksinə olmuşdur. Rusiyanın tərkibində olarkən, etnik-milli hiss hər halda xeyli dərəcədə qorunub saxlansa da, dövlətçilik duyğusu və təfəkkürü tədricən zəifləmişdir. XX əsrin əvvəllərində burjua ictimai-siyasi münasibətlərinin yaranması ilə əlaqədar milli özünüdərk istiqamətində böyük addımlar atılsa da, milli dövlətimizin fəaliyyət dövrü çox qısa olduğundan dövlətçilik şüuru formalaşmağa macal tapmamışdır. Əsrin axırında yenidən müstəqillik əldə etdikdən sonra ilkin olaraq yenə də etnik-milli şüurun inkişafı müşahidə olunur.

**Vahid ÖMƏROV,**
***fəlsəfə üzrə fəlsəfə doktoru***




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə “Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği” istiqaməti çərçivəsində hazırlanıb*

səs
Son səhifə 6 iyul

## Həkimlər: Duz siqaretdən sonra ikinci problemdir!



Duzun miqdarını 15 faiz azaltmaqla 10 il ərzində planetdə 8,5 faiz ölümün qarşısını almaq mümkündür. Həkimlər BMT-ni duzlu qidalara qarşı mübarizə aparmağa çağırır. Mütəxəssislər hesab edirlər ki, insanı "ağ ölüm" yeməkdən reklam və təbliğat deyil, qida sənayesinin tənzimlənməsi xilas edə bilər. Axı, duzun böyük hissəsi orqanizmə hazır yeməklərlə daxil olur. Duza əbəs yerə "ağ ölüm" adı verilməyib. Duz qan təzyiqini yüksəldir və ürək-damar xəstəliklərinə səbəb olur.

## Vegetarianlıq ürək tutması riskini artırır



Ət və heyvan mənşəli məhsullar yeməyən vegetarianlarda qanın laxtalanması və ateroskleroz riski artır. Nəticədə ürək tutmasına və ya insulta yol açılır.

Tədqiqatçı Dao Lin isə bildirib ki, ət yeyənlər ürək-damar xəstəlikləri riskinə vegetarianlara nisbətən daha çox məruz qalırlar. Lakin vegetarianlığı mükəmməl adlandırmaq olmaz, çünki onların rasionunda bir neçə əsas bəsləyici maddənin, o cümlədən dəmir, sink, vitamin B12 və omeqa-3 yağ turşusunun çatışmazlığı vardır. Tarazlı vegetarian pəhrizi orqanizmi zülallarla kifayət qədər təmin edə bilsə də, yağ turşuları ilə bağlı vəziyyət qənaətbəxş deyildir. Çünki son nəticədə vegetarianlarda qanda homosisteinin səviyyəsinin artması, "yaxşı" xolesterinin (HDL) səviyyəsinin isə azalması riski yaranır. Hər iki vəziyyət sonda ürək xəstəliyinə gətirib çıxarır. Bu riskə müqavimət göstərmək, sözügedən bəsləyici maddələri sağlam səviyyəyə çatdırmaq üçün vegetarianlara daha çeşidli pəhrizə əməl etmək tövsiyə olunur. Omeqa-3 yağ turşularının mənbələri qızılbalıq, ümumiyyətlə yağlı balıq, habelə qoz-fındıqdır. Dəniz məhsulları, yumurta və vitaminləşdirilmiş süd B12 vitamini ilə zəngindir. Bu bəsləyici maddələrin çatışmazlığını qida əlavələri aradan qaldırır.

## Hər gün yarım saat velosiped sürmək 11 kiloqram piyi əridir

Hər gün ən qısa müddətdə belə velosiped sürmək ürək xəstəliklərinin əmələ gəlmə riskini xeyli azaldır. Britaniyalı alimlərə görə, həftədə velosipedlə 30 kilometr yol qət etməklə ürək xəstəliklərinin yaranma riskini 50 faiz azaltmaq mümkündür. Velosiped sürmək ürək-damar sisteminin durumunu xeyli yaxşılaşdırır. Bu gəzinti zamanı müxtəlif qrup əzələlər işləyir və bu, yalnız ürəyə deyil, digər orqanların fəaliyyətinə də müsbət təsir göstərir. Velosiped sürməklə artıq çəkidən də asanlıqla xilas olmaq mümkündür. 1 saat velosiped sürən şəxs təxminən 300 kilokalori atır. Hər gün yarım saat velosiped sürmək 11 kiloqram piyi əritməyə imkan verir.



## Sərbəst güləşçilərimiz beşqat dünya çempionunun xatirə turnirində iştirak edəcəklər




İyulun 7-8-də Rusiya Federasiyası Dağıstan Respublikasının Kaspiysk şəhərində beşqat dünya çempionu Əli Əliyevin xatirəsinə sərbəst güləş üzrə 48-ci beynəlxalq turnir keçiriləcək. AZƏRTAC xəbər verir ki, turnirdə baş məşqçi Firdovsi Umudov və məşqçi Arif Abdullayevin rəhbərliyi altında yığma komandamızın 16 üzvünün iştirak etməsi planlaşdırılıb. Heyətdə Georgi Edişeraşvili, Mahir Əmiraslanov, Mircəlal Həsənzadə, Pərviz İbrahimov (hamısı 57 kq), Qalib Əliyev, Əhmədnəbi Qvarzatilov (hər ikisi 61 kq), Coşqun Əzimov, Məhəmməd Müslümov, Ağahüseyn Mustafayev (hamısı 65 kq), Murtuz Müslümov, Ruslan Dibirhacıyev, Hacımurad Ömərov (hamısı 70 kq), Cəbrayıl Həsənov (74 kq), Aleksandr Qostiyev, Murad Süleymanov (hər ikisi 86 kq) və Aslanbek Alborov (97 kq) yer alıblar. Yarışın proqramına əsasən, ilk günündə 57, 65, 74, 97, ikinci yarış günündə isə 61, 70, 86 və 125 kiloqram çəkidə güləşçilər mübarizə aparacaqlar. Görüşlərin idarə edilməsində ölkəmizi beynəlxalq dərəcəli hakim Rövşən Azadov təmsil edəcək.

## Azərbaycan idmançısı peşəkarlar arasında dünya çempionu olub




Antalyada əlbəyaxa döyüş növləri üzrə növbəti dünya çempionatı keçirilib. AZƏRTAC xəbər verir ki, dünya və Avropa çempionu Vüqar Əzimov Azərbaycan yığma komandasının heyətində bu çempionatda da uğurla çıxış edib. Otuz beş ölkənin idmançılarının qatıldığı mundialda 90 kiloqramdan yuxarı çəki dərəcəsində çıxış edən Azərbaycan idmançısı Vüqar Əzimov peşəkarlar arasında K-1 versiyası üzrə qızıl medal qazanıb. Təmsilçimiz İran və Marokko rəqibləri üzərində inamlı qələbə qazanaraq fəxri kürsünün ən yüksək pilləsinə qalxıb.

Bu qələbə sayəsində Vüqar Əzimov dünya çempionu titulunu qoruya bilib. Bu il onu daha iki sınaq gözləyir. O, sentyabrda Gürcüstanda Zaqafqaziya çempionatında və oktyabrda İspaniyada keçiriləcək dünya birinciliyində mübarizə aparacaq.

## Pepe "Beşiktaş"da nə qədər qazanacaq?




"Beşiktaş" klubu portuqaliya millisinin üzvü Pepenin keçidini rəsmən açıqlayıb. Qol.az-ın klubunun rəsmi saytına istinadən yaydığı xəbərə görə, İstanbul təmsilçisi ilə 2 illik müqavilə imzalayan 34 yaşlı müdafiəçinin qazancı da bəlli olub. "Real"ın sabiq futbolçusu Türkiyə klubunda iki ilə ümumi olaraq 9.5 milyon avro qazanacaq. Qeyd edək ki, Pepe 2007-ci ildən "Real"da çıxış edirdi.

## "Neftçi" ECA-nın üzvü oldu

"Neftçi" Avropa Klublar Assosiasiyasının (ECA) üzvü olub. Bu barədə xəbəri klubun rəsmi saytı yayıb. Bildirilir ki, paytaxt təmsilçisi ECA-nın tamhüquqlu üzvü statusuna yiyələnib. Bu isə o deməkdi ki, növbəti iki il ərzində assosiasiyanın baş assambleyası çərçivəsində keçiriləcək seçkilərdə "Neftçi" səs hüququna malik olacaq.

## "Real" "Atletiko"dan oyunçu aldı

"Real" yeni mövsüm üçün ilk transferini edib. Qol.az-ın klubun saytına istinadən yaydığı xəbərə görə, Madrid təmsilçisi "Atletiko"nun müdafiəçisi Teo Hernandesi heyətinə cəlb edib. Fransalı oyunçu ilə 6 illik müqavilə imzalanıb. İspaniya mətbuatı bu transfer üçün "Real"ın 26 milyon avro təzminat ödədiyini yazıb. Qeyd edək ki, T.Hernandes ötən mövsüm icarə əsasında "Alaves"də oynayıb.

## ELAN

Vergilər Nazirliyi tərəfindən "AKAR İç və Diş Tic.Ltd.Şti." şirkətinə verilmiş 1900685891 №-li VÖEN-i, Nizamnaməsi və dövlət reystrindən çıxarışı itdiyi üçün etibarsız sayılır.

ASAN xidmət tərəfindən Nağıyev Ramiq Muxtar oğluna verilmiş şəxsiyyət vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 32.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

*Buraxılışa məsul: Mətləb Salahov*
Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
*Qəzetdə AzərTAc, SİA, APA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 5500**